**Bu bir xalq qəzetidi** www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *Gündəlik hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 146 (5806) 31 oktyabr 2020-ci il | Qiyməti 30 qəpik

# Daha 9 kəndimiz işğaldan azad edildi



**Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vecnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!**

**Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.**

## ƏSGƏRLƏR DÖYÜŞ MEYDANLARINDA, CEYHUN BAYRAMOV DA GÖRÜŞ MEYDANLARINDA



**Möhtərəm Prezidentin ən uğurlu kadr islahatlarından biri o oldu ki, vaxtında xarici işlər naziri Elmar Məmmədyarovu işdən azad edib, yerinə Ceyhun Bayramovu qoydu. Bu adam təkcə sözlə yox, həm də bədən dili ilə çox söz deyir. Day görüşlər zamanı Elmar Məmmədyarov kimi hırıldamır. Özünü çox təmkinli və ağır aparır.**

Uğurlar, Ceyhun Bayramov! Əsgərlər döyüş meydanlarında, siz də görüş meydanlarında zəfər çalırsınız.

## *Emin Əmrullayev: İndiki vəziyyətdə ən düzgün yol distant təhsildir*

**Biz hər şagirdin ənənəvi təhsil almasının tərəfdarıyıq, amma indi yaranmış vəziyyətdə ən düzgün yol distant təhsildir. Adalet.az məlumatına görə, bunu Təhsil naziri Emin Əmrullayev dünən keçirdiyi brifinqdə deyib.**

Onun sözlərinə görə, sutka ərzində yoluxma sayının 1000-dən çox olması artıq distant təhsilin təşkili barədə qərarın verilməsinə səbəb olub.

Nazir bildirib ki, hazırda hər bir vətəndaşın verə biləcəyi töhfə qaydalara əməl etməkdir.

*Əbülfət MƏDƏTOĞLU*
*Əməkdar jurnalist*

## Ali Baş Komandana məktub

Bax: səh.5

## QARDAŞLAR, DİNC ERMƏNİ YOXDU



**Özlərinin paylaşdığı şəkillərə baxın. Yaşı az qala yetmişi keçmiş ermənləri döyüşə göndərirlər.**

Özlərinin paylaşdığı şəkillərə baxın. Orta məktəb uşaqlarının əlinə avtomat verirlər. Güllə atmağı öyrədirlər.

Qadınlardan batalyon yaradıb döyüşə göndərirlər, bilirlər ki, heç bir azərbaycanlı qadına əl qaldırmaz.

Baxıram, iki qoca ermənini Hadrutda qoyub qaçıblar. Erməni qadın da özününküləri söyür və bizi tərifləyir. Amma o yaşlarında olmalarına baxmayaraq, əllərinə bir azərbaycanlı keçsə boğazını küt bıçaqla kəsərlər.

Və biləsiniz, dinc erməni yoxdu!

Sadəcə olaraq, ürəyində Allah xofu olan, qadına, uşağa, qocaya əl qaldırmayan biz azərbaycanlılar varıq!

**Görən, Allah bizi niyə belə yaradıb?**

## *MƏN HEÇ VAXT "McDONALDS"A GİRMƏMİŞƏM*

**Oxudum ki, "McDonalds" Azərbaycan çox sarsaq bir iş görüb. Deyəsən, Azərbaycanın xəritəsini paylaşıb, sonra silib. İndi də camaata müraciət edir ki, nə bilim nə, biz sizə xidmət edirik.**

**Mən heç vaxt "McDonalds"a girməmişəm, nə Azərbaycanda, nə də xarici ölkələrdə. Çünki onların bişirdiyi yeməklər nə mənlikdi, nə də bizlik. Mən də həmişə dostlara demişəm ki, cocuqlarınızı "McDonalds"da yedirtməyin, Allah bilir orda yeməyə nə qatırlar. Xüsusilə də, oğlan uşaqlarını belə yerlərə aparmayın.**

**İndi oxuyuram ki, "McDonalds"ı boykot etməyə çağırışlar var. Görək millət bu çağırışlara necə reaksiya verəcək?**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## DAĞIDILMIŞ EVLƏRİMİZİN TƏMƏLİNİ SEVİNC GÖZ YAŞLARIYLA QOYACAĞIQ



### (Azad Rəhimova açıq məktub)

**II Dünya Müharibəsi zamanı SSRİ-nin Avropa hissəsində demək olar ki, bütün şəhərlər, kəndlər - Minsk, Kiyev, Donbass bizim işğal altında olan torpaqlardakı şəhər və kəndlərimiz kimi darmadağın olmuşdu. SSRİ-nin Avropa hissəsi xarabazara çevrilmişdi, bizim işğal altındakı torpaqlarımız kimi. Amma müharibədən çıxmış, qəpiyə güllə atan Sovet hökuməti çox qısa bir zamanda bütün şəhər və kəndlərini bərpa edə bildi. İndi Kiyev dünyanın ən gözəl şəhərlərindən biridi, Minsk də, Donbass da, Odessa da və sair və ilaxır.**

**(Ardı 2-ci səhifədə)**

## GÜNÜN LƏTİFƏSİ

### *MƏNİM DƏ ADIM MKRTÇ OLSA AĞLAYARAM*



Mirzə Cəlil küçəylə gedərkən görür bir erməni uşağı ağlayır. Ürəyi yanır, yaxınlaşıb başını sığallayır, soruşur:

- Adın nədi, a bala?

Uşaq deyir:

- Mkrtç.

Mirzə Cəlil:

- Ağla, bala, ağla. Mənim də adım Mkrtç olsa ağlayaram.

## Elçin Əmirbəyov: «Video-foto sübutlar Avropa Məhkəməsinə təqdim olunub»

**Azərbaycan oktyabrın 27-də Ermənistanın cinayət əməlləri ilə bağlı Avropa Məhkəməsinə müraciət edib. Sübutlar artıq Avropa Məhkəməsinə təqdim edilib. Azərbaycan tərəfi Avropa İnsan Hüquqları Konvensiyasının ikinci maddəsi - həyat hüququnun pozulması ilə bağlı dolğun məlumatlar təqdim edib.**



Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi cinayətlərlə bağlı ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun, beynəlxalq təşkilatların, yerli və beynəlxalq media qurumlarının nümayəndələri üçün keçirilən brifinqdə bildirib.

Elçin Əmirbəyov qeyd edib ki, yaxın vaxtlarda müraciətə baxılacaq və Ermənistandan bununla bağlı izahat tələb olunacaq. Artıq video-foto sübutlar Avropa İnsan Hüquqları Məhkəməsinə təqdim olunub. Xüsusilə kaset bombalardan istifadə ilə bağlı beynəlxalq təşkilatlara bildirilib.

## Daha 4 rayonda 22 ev şəhid ailələri və müharibə əlillərinə verilib

**Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm zəfərlərlə şanlı tarix yazdığı bu günlərdə şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin mənzil və fərdi evlə təminat proqramı da davam edir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən Adalet.az-a verilən məlumata görə, nazirlik tərəfindən bu dəfə Zərdab, İmişli, Göyçay və Kürdəmir rayonlarında yeni inşa olunmuş 22 fərdi yaşayış evi şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə təqdim edilib. Zərdabın Çallı kəndində keçirilən tədbirdə Nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov qeyd edib ki, son bir ay ərzində Silahlı Qüvvələrimizin böyük Qələbələr əldə etməsi, qısa müddətdə artıq bir sıra yurd yerlərimizin işğaldan azad edilməsi Ordumuzun gücünü, qüdrətini bir daha nümayiş etdirir. İşğaldan azad edilən ərazilərimizdə Azərbaycan bayrağı qaldırılır və bu, bütün xalqımızda sonsuz qürur hissləri oyadır. Bildirilib ki, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının ailələrinin, bu döyüşlərdə sağlamlıqlarını itirmiş vətəndaşların sosial müdafiəsi də daim dövlətin diqqətindədir. 2020-ci ildə şəhid ailələri və müharibə əlillərinə rekord sayda - azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub ki, bu gün təqdim edilən 22 fərdi ev (o cümlədən Zərdabda 7, İmişlidə 4, Kürdəmirdə 7, Göyçayda 4 ev) də daxil olmaqla, onlardan artıq 710 mənzil və fərdi ev artıq verilib. Digər evlər, mənzillər də ilin sonunadək veriləcək. Ümumilikdə ötən dövrdə 8298 mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlara təqdim edilib.



**Çıxış edən şəhid ailələri və müharibə əlilləri göstərilən yüksək diqqət və qayğıya, bu gün isə fərdi evlərlə təmin olunduqlarına görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər. Onlar Ordumuzun Qələbələrindən, torpaqlarımızın işğaldan azad edilməsindən, düşmənə sarsıdıcı zərbələr vurulmasından fərəh hissi keçirdiklərini, şəhidlərimizin qisasının düşməndən layiqincə alındığını vurğulayıblar. İşğal altında olan digər torpaqlarımızın azad ediləcəyi günün də uzaqda olmadığına əminliklərini ifadə ediblər.**

## Hikmət Hacıyev: "Ermənistanın cəzalandırılması üçün bütün addımlar atılacaq"



**Azərbaycanda mülki əhaliyə qarşı cinayətlərə görə Ermənistanın hərbi-siyasi rəhbərliyi məsuliyyət daşıyır. Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Baş Prokurorluqda keçirilən brifinqdə deyib.**

Onun sözlərinə görə, günahkar şəxslərin cəzalandırılması üçün bütün hüquqi addımlar atılacaq və beynəlxalq mexanizmlərdən istifadə olunacaq.

"Çıraqov işində qeyd olunduğu kimi, Ermənistan işğalı həyata keçirən dövlət kimi məsuliyyət daşıyır. Ermənistan ərazisindən raketlərin atılması və mülki əhalinin ölümü Ermənistanın məsuliyyətini təsdiqləyir. Bu gün döyüşlərdə iştirak edənlərin əksəriyyəti Ermənistan vətəndaşlarıdır. Ermənistan hərbi təcavüzü həyata keçirən tərəf kimi məsuliyyət daşıyır".

## İLK VƏ ƏN GÖZƏL AZANI ŞUŞADA HAFİZ SƏDİRZADƏ OXUYACAQ

*İşğaldan azad olunmuş kəndlərimizdə səsi olan əsgərlərimiz bayrağımız qaldırılanda Azan oxuyurlar. Nə gözəl! Amma baxıram ki, bu bəzilərinin xoşuna gəlmir və insanları incidəcək statuslar yazırlar.*

*Dostlar, görünür siz Azanı başa düşmürsüz. Azan insanları nəyə çağırır, xeyrül-əmələ və savab işlər görməyə. İndi əsgərlərimiz xeyrül-əməl edib, savab işlər görüb torpaqlarımızı düşmənlərdən azad edirlər. Və Azan oxumaqla digərlərini də belə xeyrül-əməllərə və savab işlər görməyə çağırırlar. Burda pis nə var?*

*Mən özüm hər gün Qarabağın tanınmış xanəndəsi Hafiz Sədirzadənin (şair, tədqiqatçı, Azərbaycanı xilas etmək üçün İslam ordusu ilə bağlı İstanbula gedib Sultanla görüşən Məhəmməd ağa Müctehidzadənin oğludu) Ağdamda məlahətli səslə oxuduğu sonuncu Azana qulaq asıram. Ruhum təzələnir.*

*Və inanıram ki, Şuşa azad edildəndən sonra bu müqəddəs şəhərdə Gövhər ağa məscidinin minbərindən Hafiz Sədirzadə Şuşanın ilk və ən gözəl Azanını oxuyacaq!*

*Hafizin Ağdamda oxuduğu sonuncu Azanı tez-tez saytımızda yerləşdiririk, buyurun, qulaq asın.*

*Qoy həmin Azan sizin də ruhunuzu oxşasın.*

*Qoy Azərbaycanın azad olunmuş bütün torpaqlarında Azan səsi eşidilsin.*

Aqil ABBAS

# DAĞIDILMIŞ EVLƏRİMİZİN TƏMƏLİNİ SEVİNC GÖZ YAŞLARIYLA QOYACAĞIQ

## (Azad Rəhimova açıq məktub)

(əvvəli 1-ci səhifədə)

İndi Ermənistan da bizim şəhər və kəndlərimizi şumlayıb. Özü də faşistlərdən betər şumlayıb. Təbii ki, bu bizi ağrıdır. Amma əsas torpaqlarımızın azad olunmasıdı, qalanı türklər demiş, təfərrüatdır.

Yəqin ki, Cocuq Mərcanlını 4-5 ayın içində bərpa edib, güllüçiçəkliyə çevirən Dövlət dağıdılmış şəhər və kəndlərimizin yenidən bərpası üçün çoxdan plan tutub. Özü də yüz ölçüb, bir biçilən plan.

Bir misal çəkim. Keçən il Memarlıq və İnşaat Universitetində bir tədbirdə iştirak edirdim. Gülçöhrə xanımın rəhbərlik etdiyi universitetin müəllim və tələbələri Fəqan Əliyevin prezidenti olduğu "Günəş" Assosiasiyası ilə hazırladıqları Ağdam şəhərinin bərpa-layihəsi ilə tanış olduq. Çox böyük əmək sərf etmişdilər. Layihədə həm Ağdamın qədim bina və abidələrinin əvvəlki şəklinə salınması, həm də yeni ictimai və yaşayış binaların tikilməsi öz əksini tapmışdı.

Yəqin ki,dövlət tərəfindən digər şəhər və kəndlərimizin bərpa-layihəsi də hazırlanıb. Əslində mən başqa bir məsələyə görə belə giriş verdim. Əvvəla, şəhər və kəndlərimiz azad olunub, minalardan təmizləndikdən sonra yəqin ki, icazə veriləcək ki, hər kəs öz kənd-kəsəyinə gedə bilsin. İnsanların əksəriyyəti gedib öz həyətlərində çadır qurub yaşayacaq və dağıdılmış ocaqlarını özləri tikəcəklər. Daş tapan daşla, daş tapmayan da lap çiy kərpiclə yuvasını quracaq.

Bundan başqa, Ağdamda iki daş karxanası vardı, böyüyü də Şahbulaq. Bütün Qarabağ həmin Şahbulağın daşıyla tikilmişdi. Hər dəfə yolum Şahbulağa düşəndə heyrətlənirdim ki, burdan hər gün nə qədər daş daşınır, amma dağ yerindədi. Elə bil Xəzər dənizindən dolçayla su götürmüsən. Və onu da deyim ki, Şahbulaq daşı Bakı karxanalarındakı daşdan həm möhkəmliyinə, həm də çəkisinin ağırlığına görə fərqlənirdi. Ona görə də Bakı şəhərində tikilən çoxmərtəbəli binaların birinci, ikinci mərtəbəsi Şahbulaq daşı ilə tikilirdi. Və indi Şahbulaq yerində durur, Qarabağı yenidən tikmək üçün on dəfələrlə artıq daş ehtiyatı var.

İndi gələk əsas mətləbə. Baykal Amur Magistralı tikiləndə mən jurnalist kimi bir ay həmin bölgədə ezamiyyətdə olmuşam, televiziya və qəzetlər üçün materiallar hazırlamışam. Demək olar ki, BAM-ın tikintisində çalışanların doxsan faizi gənclərdən ibarət idi və onlar SSRİ-nin bütün bölgələrini təmsil edirdilər, özü də könüllü şəkildə. Sonra elə onların əksəriyyəti evlənib özlərinin tikdikləri şəhər və qəsəbələrdə qalıb yaşadılar. Ust-Kut və Urkan şəhərlərini də əsasən Azərbaycandan gedən gənclər tikib. Özü də biləsiniz ki, həmin bölgə bataqlıqlar idi. Baykal Amur Magistralının uzunluğu 3145 km. idi. Gənclər tikdi həmin magistralı.

Vaxtilə SSRİ-də tələbə-inşaat dəstələri vardı. Deməli, tələbələr kursu bitirəndə ölkənin müxtəlif şəhərlərindəki tikintilərə könüllü olaraq gedirdilər və maaş da alırdılar. Həmin maaşla tələbə növbəti bir ili dolana bilirdi. Onu da qeyd edim ki, tələbə- inşaat dəstələrinin özülünü SSRİ-də ilk dəfə Azərbaycan Komsomol Komitəsi qoymuşdu və bundan sonra bu ənənə bütün SSRİ-də yayılmışdı. Bu ideyanı ilk dəfə ortaya atan həmin dövrdə Azərbaycan Komsomol Komitəsində şöbə müdiri işləyən və daha sonra tələbə-inşaat dəstələrinin komandiri olan mənim doğma əmim oğlu Nadir Abbasov idi, ruhu şad olsun. Azərbaycanın tələbə-inşaatçıları həm ölkəmizdə tikinti-quruculuq işləri ilə məşğul olurdu, həm də SSRİ-də müxtəlif bölgələrdə fəaliyyət göstərirdi.

İndi Azərbaycan Gənclər Təşkilatı da bu layihənin üzərində işləyib (yəqin ki, həmin keçmiş layihə arxivlərdə durur, ondan istifadə etmək olar) tələbə-inşaat dəstələri yarada bilər. Və həmin gənclər Qarabağı yenidən tikmək üçün necə ki döyüşə sevinə-sevinə getdikləri kimi, deyib-gülə, çal-çağırla, böyük sevinclə Qarabağa yollanacaqlar. Özü də qızlı-oğlanlı. Heç maaş da istəməyəcəklər. Nə qədər həkimə, müəllimə, mühəndisə, memara ehtiyac olacaq. Böyük bir tikinti cəbhəsi açılacaq və ölkədə işsizlik sıfır həddinə düşəcək.

Gənclərimiz hərb meydanlarında göstərdikləri şücaəti indi də tikinti meydanlarında göstərəcəklər.

Azərbaycan Gənclər və İdman Nazirliyi və bu təşkilatın rəhbəri hörmətli Azad Rəhimov indidən bu məsələ ətrafında ciddi düşünməli və bu layihələri ortaya qoymalıdır.

Dəfələrlə demişəm və yenə deyirəm, dağılmış evlərimiz və yurdlarımızı daha gözəl və daha yaraşıqlı tikəcəyik. Bilirsiniz niyə? Çünki onun qumuna, sementinə, əhənginə həm də sevinc göz yaşlarımızı qoyacağıq.

Qoy Allah döyüş meydanındakı gənclərimizi qorusun və sabah Qarabağı yenidən tikəcək gənclərimizi də qanadlarının altına alsın.

# ŞANLI ORDUMUZ DÜŞMƏNİN SONUNU YAXINLAŞDIRIR

## Ali Baş Komandanın əmrləri dəqiqliklə icra olunur

**Birmənalı şəkildə etiraf etmək lazımdır ki, 27 sentyabr 2020- ci ildən sonra bütün Azərbaycan cəmiyyətində köklü bir dəyişiklik baş verdi. Bu dəyişiklik təkcə yaşanan sevincdə, ürək ağrıdan itkilərimizdə deyil, o həm də məntiqimizdə, sözsöhbətimizdə və davranışımızdadı. İnanın ki, tam səmimi deyirəm, elə ki, əvvəldə vurğuladığım tarixdən öncəki zamana diqqət yetirsək görərik ki, Bakı, bütövklükdə Azərbaycan fərqli bir ovqatla yaşayırdı. İnsanların böyük əksəriyyəti öz gündəlik qayğılarını, alış-verişlərini, bizneslərini, bir də ki, COVİD-19-u düşünürdülər. Müəyyən zümrə isə pandemiyanın yaratdığı əsəbilikdən çıxmaq üçün qanunları pozmaqla, gizli toy məclisi qurub şadlıq etmək ovqatı ilə yaşayırdı. Bütün bunlar o zamanın gerçəyi idi. Amma...**



Bir gerçək də var idi. İctimai nəqliyyatda, adamların seyrək əyləşdiyi çayxana və kafelərdə mövzu da əsasən şou əhli və bir də bu şou əhlinin xanımları idi. Ona görə də adam bu söhbətlərdən yorulub təngə gəlirdi. Yəni nə qədər hansısa xanım oxuyanın geyimini, bədənini müzakirə etmək olar? Görünür, 27 sentyabr 2020-ci il tarixi həm də hardasa labüd imiş - bizi özümüzə, Azərbaycanı özünə qaytarmaq üçün!

Belə bir məşhur kəlam var. Kəlam sahibi deyib ki, ***"Türk özünə qayıdanda böyük olur"***. Bəli, biz millət olaraq özümüzə qayıtdıq. Qayıdışımızla işğal olunmuş torpaqlarımızın azad edilməsi üçün Ermənistanın təxribatlarına sərt cavab verməklə əks hücuma keçməklə başladı. İndi artıq o başlanğıc ellikcə millət olaraq yaşadığımız reallığa çevrilib. Biz hər yerdə - evdə də, çöldə də, ictimai nəqliyyatda da əsgərlərimizdən, Ali Baş Komandanımızdan və qələbələrimizdən danışırıq. Deməli, həyat gerçəkliyi bizə öz dərsini verdi. Bizə xatırlatdı ki, kimliyimizi göstərməyin zamanıdı. Ali Baş Komandanımızın dediyi kimi, ***"Bu hüquqi baza bizə imkan verir ki, biz döyüş meydanında bu gün düşmənə dərs verək. Qovaq onları, rədd edək bizim torpaqlarımızdan!"***.

Həqiqətən Şanlı Azərbaycan Ordusu bu gün düşmənə dərs verir. Özü də unudulmayacaq və tarixə böyük hərflərlə yazılacaq DƏRS! Bu dərsin səs-sorağı hüdudlarımızı çoxdan aşıb. Belə ki, dünyanın ən aparıcı dövlətləri, onların tanınmış hərbi ekspertləri, yüksək rütbəli zabitləri birmənalı şəkildə etiraf etməklə bildirirlər ki, ***"Azərbaycan Ordusu bu gün hərb sənətində yeni səhifə yazır. Onların taktika və strategiyaları tamamilə yenidir. Ona görə də 90-cı illərdə qalan Ermənistan Ordusu aciz və çıxılmaz duruma düşübdü. Cəsarəti çatıb məğlubiyyətini etiraf edə bilmir. Amma bunu mütləq edəcəkdi!"***. Doğrudan da söylənilən bu fikirlərin heç bir şərhə və müzakirəyə ehtiyac yeri yoxdur. Ona görə ki, bütün bu deyilənlər bu gün gözümüzün önündə sərgilənir. Həmin o sərgilənən məqamları biz qalib kimi, ermənilər isə məğlub kimi yaşayır. Bunu da onlara yaşadan Ali Baş Komandanımız və onun əmrlərini birmənalı şəkildə yerinə yetirən Şanlı Orudumuzdu! Əgər Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin açıqlamalarına diqqət yetirsək, onda görərik ki, düşmən tərəf hər gün nə qədər silah-sursat, hərbi texnika, eləcə də canlı qüvvə itirir. Onların obrazlı desəm, həyatını qaraldan isə təbii ki, AZƏRBAYCAN ƏSGƏRİDİR!

Bu gün itirilmiş torpaqlarımızın böyük bir hissəsini 30 gün ərzində geri almış Ordumuz düşmənin təxribatlarına, onların havadarlarının qarayaxmalarına baxmayaraq, azad etdikləri hər kənddə, hər şəhərdə, hər qəsəbədə bayrağımızı göylərə qaldırırlar. İndi Azərbaycan Bayrağı uzaq düşdüyü doğma məkana qayıdıb və qayıtmaqda da davam edir. Bax, belə məqamlarda qeyri-adi olaraq ürəyimizi sevinc hissi bürüyür... gözlərimiz ekrana sancılır. Biz oradan Ali Baş Komandanın çıxışını dinləyirik. Və onun hər çıxışının sonunda bizı müjdə etdiyi yeni adları, yeni ünvanları sevinc yaşları ilə yaddaşımıza yazırıq. Bu çıxışların sonunda Ali Baş Komandan yumruğunu sıxaraq ***"Yaşasın Azərbaycan ordusu! Qarabağ Azərbaycandır!"*** - deyir.

Təbii ki, indi dünya Qarabağın Azərbaycan olduğunu öz gündəliyinə daxil edib. Ölkəmizə akreditə olunmuş xarici media təmsilçilərinin hamısı bu sözü öz yazılarında, öz informasiyalarında xüsusi vurğulayırlar. Bizə qarşı ikili standartlardan yanaşan mətbuatı da artıq Qarabağın Azərbaycana aid olduğunu tirajlayır. Deməli, haqqədalət 30 ildən sonra da olsa, özünü büruzə verdi, gerçəklik qalib gəlməyə başladı. Doğrudur, biz bunu beynəlxalq hüquqdan, BMT-dən, ATƏT-dən, onun Minsk qrupundan, böyük güc sahibi, nüvə silahı olan dövlətlərdən, onların rəhbərlərindən gözləyirdik.

Təəssüf ki, onlar bu addımı atmadılar. Əksinə, problemi dondurmaq yolunu tutdular. Sadəcə, danışıqlar xatirinə danışıqlar apardılar.

Və bununla da düşmənə silahlanmaq, ərazilərimizdə məskunlaşdırma aparmaq imkanı yaratdılar. Deməli, məntiqlə yanaşsaq, problemi çözməli olanlar problemi yaradanın yanında dayandılar.

Bu gün dünyanın aparıcı KİV-lərinə müsahibələr verən Azərbaycan Prezidenti cənab İlham Əliyev, həmçinin prezident köməkçisi Prezident Adminstrasiyasının Xarici Siyasət Məsələləri Şöbəsinin müdiri Hikmət Hacıyev, Xarici işlər naziri Ceyhun Bayramov, Azərbaycanın Baş Prokuroru Kamran Əliyev və digər səlahiyyətli dövlət adamları birmənalı olaraq vurğulayırlar ki, ***"Azərbaycan BMT-nin qətnamələrini yerinə yetirir. Öz torpaqlarını azad edir"***. Və ölkə prezidenti xüsusi olaraq qeyd edir ki, ***"Mənim yanaşmam həmişə belə olub, azərbaycanlılar təkcə Dağlıq Qarabağın hüdudlarından kənarda, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənarda yerləşən işğal edilmiş yeddi rayona deyil, o cümlədən əsrlər boyu yaşadıqları ərazilərə, torpaqlara qayıtmalıdırlar. İlk növbədə Şuşaya, Xankəndinə və azərbaycanlıların əsrlər boyu yaşadıqları digər torpaqlara"***.

Bu da təbii ki, bütün xalqın arzusudur. Ölkə prezidenti də xalqın qarantı olduğundan, xalqla birlikdə olduğundan xalqın istəyini açıq şəkildə dünyaya bildirib və bildirməkdə də davam edir. Hər bir müsahibəsinin sonunda da təkrar-təkrar vurğulayır ki, ***"Ermənistan başa düşməlidir ki, o, artıq yolun kənarındadır. Artıq ondan ötrü heç kim vuruşmayacaq. Bəs sonra? Əgər o, bizimlə qarşıdurmaya davam edərsə və bundan sonra da Türkiyəyə ərazi iddiaları irəli sürərsə, başa düşməlidir ki, bizim qarşımızda necə dura bilər? Buna görə də düşünürəm ki, geosiyasi reallıqlar mütləq nəzərə alınmalıdır. Biz hər şeyi edəcəyik ki, bu belə də olsun"***.

**Göründüyü kimi, hər kəsə qarşı iddialı olan, hər kəsin önündə özünü yazıq, kimsəsiz və aciz durumda təqdim edən Ermənistan və onun rəhbərliyi tarixin ən böyük sualı qarşısında qalıb: o, seçim etməlidir - ya reallığı qəbul etmək, ya da bir dövlət olaraq son taleyi ağlamaq. Hadisələrin axarı daha çox son taleyi yaxınlaşdırır. Bunu ona Azərbaycan Əsgəri bir az da tez sürpriz edəcəkdir. O gün uzaqda deyil. Çünki Qarabağ Azərbaycandır!**

**Əbülfət MƏDƏTOĞLU**
**«Ədalət» qəzeti Baş redaktorun birinci müavini, Əməkdar jurnalist**

***Aqil ABBAS***

# DƏMŞALAX

**Əslində ədəbi dil normalarına görə bu söz "dəmşalaq" kimi yazılmalıdı. Amma bu sözü ən çox ağdamlılar işlətdiyinə görə, onların ləhcəsində yazdım.**

**"Dəmşalax" nədi? Özüm ədəbiyyatçı olmasına baxmayaraq, bu sözün ədəbi dildə və ədəbiyyatda işləndiyini bilmirəm, amma mən özüm işlədirəm.**

**Ağdamda dəmşalax kimə deyirdilər? Dilimizdə səfeh var, axmaq var, təlxək var, sarsaq var, düşük var, quşbeyin var, gicbəsər var.**

**Ağdamlılar bütün bunların toplusuna "dəmşalax" deyirlər. Deməli , kimə dəmşalax desələr həmin adam həm sarsaqdı, həm axmaqdı, həm quşbeyindi və sair və ilaxır.**



**Məsələn, Dostoyevskinin "İdiot" əsərinin adını "Səfeh" kimi tərcümə ediblər. Əslində əsəri oxuyanda görürsən ki, qəhrəman idiot deyil ey, dəmşalaxdı.**

**İndi Ermənistanın baş naziri dəmşalaxdı. Hətta dəmşalaxlar kimi rəqs edir, dəmşalaxlar kimi danışır. Müsahibə verəndə də dəmşalaxlar kimi müsahibə verir. Yalnız dəmşalaxlar bir-iki günün içində öz fikrini dörd-beş dəfə dəyişə bilər. Yalnız dəmşalaxlar özü dura-dura arvadının əlinə silah verib harasa göndərə bilər. Yalnız dəmşalaxlar onu başından eləmək istəyən insanlara (dünya liderlərinə) tez-tez zəhlələrini tökük telefon aça bilər.**

**Ağdamlıların bir ifadəsi də var, bunu ən çox Rəşad Məcid işlədir: "Ə, pəpişqulu".**

**Baxıram ki, Rəşad Məcidin nəvəsi İpək iki gündən, üç gündən bir facebookda maraqlı çıxışlar edir.**

**Srağagün yenə bir videosuna baxdım və güldüm. Babasının "pəpişqulu" ifadəsini öz bildiyi kimi dedi:**

**- Sən bizə şərt qoyurdun, Pəpişyan?!**

**Və bu gərginlikdə xeyli güldüm.**

**"Face"də Rəşad Məcidin səhifəsini açın və İpək balanın həmin çıxışına baxın və bir az ürəyiniz açılsın.**

**Pəpişyan özü haqqında bütün ifadələri eşidib və sonda eşidəcəyi ifadə də dəmşalaxdı!**

## *Kravçuk: Donbasda sülh üçün plan hazırlayacağıq*



**Ukrayna hakimiyyəti bir həftə sonra Donbasda sülhün əldə olunması üçün fəaliyyət planı hazırlayacaq.**

Bunu Ukraynanın eks-prezidenti, Donbasdakı situasiyanın həlli üzrə kontakt qrupunun sədri Leonid Kravçuk deyib.

"11 noyabrda baş tutacaq növbəti iclasda biz artıq bu mərhələli fəaliyyət planına, Donbasdakı həyatın bütün sferalarında necə hərəkət edəcəyimizə baxacağıq.

Yəqin ki, bu bizim üçün əsasdır", - deyə o bildirib.

**MEHRİBAN**

# Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

№ 122 (2156) 31 oktyabr 2020-ci il


# Əsrlərin o üzündən gələn yol






**Azərbaycan sivilizasiyanın ən qədim ocaqlarından biridir. Azıx mağarasında arxeoloji qazıntılar nəticəsində aşkar olunan maddi mədəniyyət qalıqları göstərir ki, Azərbaycan ərazisi qədim insanların formalaşması arealına daxil idi. Bu materiallar ibtidai insanların burada 1,5 mln. il əvvəl məskunlaşmasını sübut edir. Qobustan qayaüstü təsvirləri kompleksi Mezolit, Neolit və sonrakı dövrlər incəsənətinin mühüm abidəsidir.**

Azərbaycan ərazisində e.ə. VI minilliyin ortalarına aid olan yaşayış məskənləri burada qonşu vilayətlərlə sıx əlaqədə olan sakinlərin təsərrüfatı, mədəniyyəti və ictimai münasibətləri haqqında aydın təsəvvür yaradır. E.ə. IV minilliyin ortaları - III minilliyin sonlarında Azərbaycanda və qonşu ərazilərdə Kür-Araz mədəniyyəti yayılmışdır. Yazılı mənbələrdə Urmiyayanı hövzə ərazisindən e. ə. III minilliyin ikinci yarısından bəhs olunur.

Göstərilən əraziyə aid ən qədim etnik ad kuti adıdır. Mənbələrdə ilk dəfə yad edildikləri dövrdə əsas məşğuliyyətləri maldarlıq olan kutilərdə artıq tayfa ittifaqı təşəkkül tapmışdı.

Akad. M. İsmayılov, Prof. Q. Qeybullayev, Prof. F. Cəlilov və başqaları kutiləri türkdilli hesab edirlər.

Urmiya gölündən cənubşərqdə yerləşən əyalətlər haqqında məlumat verən e. ə. III minilliyin sonlarına aid Akkad mənbələrində lullubum (Lullupum, Luilume, Lullu) tayfasının adı çəkilir.

Q. Qeybullayev lulubi etnonim, teonim və toponimlərini tədqiq edərək onların türk dilli ola biləcəkləri ehtimalını irəli sürmüşdür.

E.ə. XI əsrdə Manna ərazisində müstəqil siyasət yürüdən Zamua, Gilzan, Alateye, Surikaş, Gizilbunda, Uişdiş, Zikirtu, Andia və s. vilayətlər meydana gəlmişdi.

Urmiya gölündən cənubdakı ərazi Zamua adı ilə tanınmağa başladı.

Bu ad lullubi tayfalarından birinə mənsub yerli ad hesab edilir. Sonralar həmin ərazi hissələrində mannalılar yüksəldi.

Bu ad altında şübhəsiz ki, ayrı-ayrı qohum tayfalar birləşir.

Manna dövləti qədim ənənələri olan bir ərazidə, qədim tarixin çox böyük bir kəsiyində iqtisadi və mədəni cəhətdən öndə gedən bir ərazidə meydana gəlmişdi. Manna e.ə. III-II minilliklərdə bu regionda mövcud olmuş Kuti, Lulubi və kassilərin bilavasitə varisi idi.

Manna, Minni və ya Manas - Tarixi Azərbaycan ərazisində, Urmiya gölünün sahilində yazılı mənbələrdə qeyd olunan ilk mərkəzləşdirilmiş dövlət olmuşdur. Paytaxtı İzirtu şəhəridir.

Manna dövləti qədim ənənələri olan bir ərazidə, qədim tarixin çox böyük iqtisadi və mədəni cəhətdən öndə gedən bir ərazidə meydana gəlmişdi.

Mannada dövlətin başında irsi hakimiyyətə malik hökmdar dururdu. Dövlətin ərazisi hökmdarın təyin etdiyi canişinlər tərəfindən idarə olunan əyalətlərə bölünürdü.

Prof. Q. Qeybullayev qeyd edir ki, qədim türk xalqlarının tarixində Manna ilk türk dövlətidir (Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkül tarixindən, Bakı, 1994, səh. 36). Azərbaycanlıların dövlətçilik ənənəsinin tarixi Mannadan başlanır (Dğəkonov İ. M. İstoriə Midii. M. - L., 1956, səh. 145; Azərbaycan tarixi (yeddi cilddə), I cild, Bakı, 2007, səh. 465).

Mannanın adı və ilk hökmdarı Udakinin adı mixi yazılı mənbələrdə ilk dəfə e.ə. 843-cu ildə III Salmanasar kitabəsində çəkilir (S. Qaşqay - Manna dovləti, Bakı, 1993, səh. 65). Adətən assurlar Mannanı "Manneylər olkəsi", Mannaş, urartulular isə Mana olkəsi adlandırırdılar.

S. Qaşqay qeyd edir ki, Manna adı mənşəcə yerli ad idi. Ehtimal edilir ki, bu ad əvvəlcə Urmiya ətrafında yaşayan tayfalardan birinə məxsus olmuş, sonralar mannalılar ərazi və tayfaları birləşdirdikdən sonra bu ad bütün dovlətə şamil edilmişdir.

Mənbələrin məlumatlarına əsasən, Manna dövlətinin möhkəmlənməsini və tarixi coğrafiyası müəyyən dərəcədə izləmək mümkün olmuşdur.

Zikirtu əyaləti müasir Miyanə - Ərdəbil şəhərləri rayonu ilə lokalizə edilir.

O, mənbələrdə artıq Mannadan asılı ərazi kimi xatırlanır. II Sarqonun verdiyi məlumata görə, Zikirtunun başında mannalıların canişini dayanırdı.

Mannaya tabe əyalətlər arasında müasir Marağa rayonu ərazisində yerləşən Uişdiş (aşşurca - Uisdis, Urartuca - Ugisti) əyalətinin də adı çəkilir. Onun da başında Manna canişini dururdu. Uişdiş əyaləti Zikirtu və Andiya əyalətləri ilə birlikdə mannalı Azaya qarşı çıxmışdı. Lakin o, aşşurluların köməyilə yenidən Mannaya tabe edildi. Urmiyanı hövzənin şimali-şərq hissəsində Manna ilə Urartu sərhədləri hüdudunda Subi və Bari əyalətləri yerləşirdi. O, həm də Sanqibutu adlanırdı. Bu əyalətlər vaxtaşırı gah bu, gah da digər tərəfə tabe olurdu. II Sarqon Bari əyalətində yaxşı möhkəmləndirilmiş, at tövləri, arpa dolu anbarları ilə zəngin olan Tarun və Tarmakis (Təbriz) qalalarının adını çəkir. Mannanın cənubi-şərq torpaqları və ona tabe əyalətlər madayların məskunlaşdığı ərazi ilə sərhəddə yerləşirdi.

S. Qaşqay qeyd edir ki, Manna ərazisinin etnik xarakteristikasını vermək üçün farsdilli tayfaların İran yaylası-na soxulması dövrünü və onların gəlmə yolları məsələsini aydınlaşdırmaq lazımdır (S. Qaşqay - Manna dövləti, Bakı, 1993, səh. 148). Bu məsələ barədə dünya tarixşünaslığında müxtəlif mülahizələr mövcuddur.

Tədqiqatçıların bir qismi bu tayfaların Orta Asiyadan çıxmalarını, digərləri isə Qafqazdan keçərək gəldiklərini söyləyirlər. Lakin bütün tarixçilər farsdillilərin sözügedən ərazidə aborigen olmadıqlarını birmənalı şəkildə qəbul edirlər.

II Sarqon Bari əyalətində yaxşı möhkəmləndirilmiş, at tövləri, arpa dolu anbarları ilə zəngin olan Tarun və Tarmakis (Təbriz) qalalarının adını çəkir. Mannanın cənubi-şərq torpaqları və ona tabe əyalətlər madayların məskunlaşdığı ərazi ilə sərhəddə yerləşirdi.

**S. Qaşqay qeyd edir ki, Manna ərazisinin etnik xarakteristikasını vermək üçün farsdilli tayfaların İran yaylasına soxulması dövrünü və onların gəlmə yolları məsələsini aydınlaşdırmaq lazımdır (S. Qaşqay - Manna dövləti, Bakı, 1993, səh. 148).**

**Bu məsələ barədə dünya tarixşünaslığında müxtəlif mülahizələr mövcuddur. Tədqiqatçıların bir qismi bu tayfaların Orta Asiyadan çıxmalarını, digərləri isə Qafqazdan keçərək gəldiklərini söyləyirlər. Lakin bütün tarixçilər farsdillilərin sözügedən ərazidə aborigen olmadıqlarını birmənalı şəkildə qəbul edirlər.**

**(ardı gələn sayımızda)**

***Əbülfət MƏDƏTOĞLU***


AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# Ali Baş Komandana məktub

**Çox hörmətli Cənab Prezident!**

**Cənab Ali Baş Komandan!**

Yaşadığım həyatın son 32 ilini, yəni 1988-ci ilin fevral ayından 27 sentyabr 2020-ci il tarixə qədərinisarsıntılar, ağrıacılar, ən əsası isə Vətənsizlik təlaşı ilə yaşamışam. Doğulduğum kəndi, uşaqlığımın ünvanı olan ata-baba ocağımı yalnız yuxularımda görüb, xəyallarımda gəzmişəm. O qədim və Azərbaycan tarixində özəl yeri olan kəndə dönmək istəyim bir ilğım olub mənim üçün. Hətta bəzən ümidsizliyə qapılmışam. Artıq hər şeyin bitdiyini düşünmüşəm. Bu da səbəbsiz olmayıb. Çünki son 100 ildə ermənilərin Sovet rejiminin əli ilə, sonra da işğalçılıq yolu ilə bizdən qopartdığı torpaqların geri alınacağını, nə vaxtsa qaytarılacağını ağlıma gətirməkdə tərəddüd edirdim. Bu bir tarixi gerçəklikdir ki, siz XX əsrdə mühim bir addım atdınız. Qətiyyətiniz, İradəniz və Komandanlıq gücünüz bizim ümidlərimizi təkcə göyərtmədi, həm də onlara qol-qanad verdi.

**Cənab Ali Baş Komandan!**

Mən Dağlıq Qarabağın məşhur bir güşəsindənəm. Bir zamanlar Hadrut rayonuna aid olan Tuğ kəndində doğulmuşam. Bu kəndin səsi-sorağı hələ Sovet dönəmində ölkə hüdudlarını aşmışdır. Faktlara nəzər salsaq, görərik ki, bu kənddəki məktəbin 138 il yaşı var. Onun 125 illiyini qeyd etmək barədə Siz 2007-ci ildə sərəncam imzalanmısınız. Tuğ kəndi barəsində Azərbaycan tarixində, xüsusilə, Qarabağnamələrdə müfəssəl məlumatlar var. Bu kəndin iki övladı Cümhuriyyət Hökumətinin ən yüksək vəzifələrini daşıyıblar. Onlardan biri Xudat bəy Ağabəyoğlu Məlikaslanov Cümhuriyyətin Dəmiryolu və Rabitə Naziri, digəri Cavab bəy Rzabəy oğlu Məlikyeqanov Bakı və Lənkəran şəhərlərinin General-qubernatoru vəzifəsini icra etmişdir. Ümumiyyətlə, bu kəndin Azərbaycan elmində, ictimai-siyasi həyatında önəmli yer tutmuş xeyli övladları, yetirmələri barəsində tarixşünaslığımızda dəfələrlə yazılıbdır.



Bu qısa xatırlatma ilə bildirmək istəyirəm ki, qədim Tuğ kəndi 1991-ci il oktyabr ayının 30-dan 31-ə keçən gecə ermənilər tərəfindən işğal olundu. Həmin tarixdən kəndin sakinləri müxtəlif ünvanlara üz tutdu. Nəhayət, Ümummilli Liderimizin hakimiyyətə qayıdışı ilə Haramı düzündə Yeni Tuğ qəsəbəsi salındı. İnsanlarımızın bir çoxu bu qəsəbədə məskunlaşdı. Sizin Prezidentliyiniz dönəmində isə daha böyük qəsəbələr salınıb, evlər inşa edildi ki, kəndimizin sakinlərinin bir qismi də bu ocaqların hənirində isinməyə başladı.

Hər zaman olduğu kimi, bu gün də Sizə güvənən, Sizin siyasətinizə dəstək verən Tuğ kəndinin sakinləri bütün Respublika əhalisi kimi 27 sentyabr 2020-ci ildən döyüşə hazır vəziyyətdədir. İstər 1-ci Qarabağ müharibəsində, istər bu gün kəndimiz şəhidlər versə də, onlar "Təki Vətən sağ olsun!", "Ordumuz və Ali Baş Komandanımız sağ olsun!" deyirlər və bilirlər ki, Sizin sayənizdə onlar da doğma torpaqlara qayıdacaqlar.

**Cənab Ali Baş Komandan!**

Siz Hadrut qəsəbəsinin azad edilməsi xəbərinixalqımıza çatdıranda biz Tuğluların hamısının sevincdən bir anlıq nəfəsi kəsildi. Nə edəcəyimizi, nə deyəcəyimizi həmin o bir anın içərisində qərarlaşdıra bilmədik. Yalnız sevinc göz yaşları bizim ürəyimizin, duyğularımızın ifadəçisinə çevrildi.

Xatırladım ki, məhz ermənilərin Hadrut qəsəbəsindən etdikləri basqılar Tuğda yaşadığımız faciələrin əsasını təşkil edirdi. Bu gün qəsəbəmiz cinayətkar ermənilərdən azad olunub. Bunun üçün Sizə sonsuz minnətdarlığımızı bildiririk. Və biz, Tuğ kəndinin sakinləri inanırıq ki, bu gün, sabah Tuğun da işğaldan azad edildiyi xəbərini bizə çatdıracaqsınız, o anın xoşbəxtliyini, o anın bütün çalarlarını bizə yaşadacaqsınız. Sizin Komandanlığınız altında şanlı Ordumuz Bayrağımızı Tuğ kəndinə sancacaq və biz 1991-ci ilin oktyabr ayının 30-dan 31-ə keçən gecə silah gücünə qovulduğumuz kəndə Sizin rəhbərliyiniz altında böyük coşqu və ümidlərlə dönəcəyik. Bunu bizəvə xalqımıza Siz yaşadacaqsınız! Allah Sizi və Ordumuzu qorusun! Qarabağın Azərbaycan olduğunu bütün dünyaya sübut edən Ali Baş Komandanımız var olsun!

**Tuğ kəndinin sakinləri adından:**
**Əbülfət Mədətoğlu**
**Əməkdar jurnalist**

Eminquey

## Hər şey Cümhuriyyətin bizə tanıdığı azadlığın bəhrəsidir



*Fransa dediniz, bu tarixi hadisə yadıma düşdü.*

*1926-cı il 2 avqustda Türkiyənin "Bozqurd" adlı gəmisi fransızların "Lotus" gəmisi ilə toqquşur. Bu qəzada 8 türk sərnişin dünyasını dəyişir. Türk məhkəmələrində mühakimə olunan fransız kapitan 80 gün həbs cəzası alır. Amma fransızlar boş dayanmır, işi Haaqa Daimi Ədalət Məhkəməsi, indiki Avropa İnsan Hüquqları Məhkəməsinə aparıb çıxarır.*

*Məhkəmə 7 sentyabr 1927-ci ildə nəticələnir.*

*Bu məhkəmədən əvvəl baş verənlər haqqında dövrün Ədliyyə Naziri Mahmud Esat Bozqurd belə deyir:*

*"Atatürk məni yanına çağırdı. İzah elədim, fikrimi isə belə bitirdim. İcazə verin, davamı müdafiə edim. Məğlub olsam, ölkəmə qayıtmayacağam. Ədalət Məhkəməsinə getmədən fransızların dediklərini etsək, təhdid qarşısında baş əyərik. Ancaq Haaqa Məhkəməsinə müraciət etsək, işi itirsək də, şərəf və ləyaqətimizə zərər dəyməz. Atatürk isə "gülə-gülə get, qazanacaqsan, qazanmasan da məmləkət səni bağrına basacaq" dedi.*



*Nəticədə Atatürkün dediyi kimi məhkəmə Türkiyənin hüquqa zidd davranmadığına qərar verir və türk heyətinə Atatürkə çatdırmaları üçün tuncdan düzəldilmiş "Bozqurd" heykəli hədiyyə edirlər. Bu, gənc bir ölkənin güclü bir dövlətə qarşı qazandığı bir hüquq zəfəridir.*

*Çevrilib ətrafa baxsan, hər şey Cümhuriyyətin sayəsində var olub.*

*Tələbə qızlar, seçkilərdə səs verən qadınlar, əlində android telefon olan oğlanlar, son tikəsi ağzında evdən tələsik çıxıb işə gedən qadınlar...*

*Qınadığımız cahillər də, bayağı adamlar da.*

*Bu günün Milli Məclisi də, Prezidenti də, Naziri də.*

*İqtidar da, müxalifət də.*

*Kresloda oturub dişini qurdalaya-qurdalaya dövlətçiliyin qəsdinə duran yekəqarın məmurlar da.*

*Cümhuriyyət olmasaydı, bu adamlar kim bilir nə edəcəkdilər!?*

*Mal, qoyun otara-otara yaşayacaqdılar bəlkə də.*

*Bir sözlə hər şey və hamı Cümhuriyyətin bizə tanıdığı azadlığın bəhrəsidir.*

*Ona görə də dövlətin, dövlətçiliyin qədrini bilmək hamının borcudur.*

*Bu gün ən kiçik qələbələr o günün Cümhuriyyət savaşlarının nəticəsidir.*

*Elə bax, məsələn, Türkiyənin fransızlara qalib gəldiyi o məhkəmənin...*

*Elə bax, məsələn, Rəsulzadənin yaratdığı Azərbaycanın...*

*M.Ə.Rəsulzadə "Azərbaycan Cümhuriyyəti kitabında yazır ki, "İki qardaş millət arasında təhəddüd edən sui-təfəhhüm daha acıdır, daha fəcidir. Türklüyünü anlamış Azərbaycan ilə türklük üçün qan tökən, can verən Anadolu arasındakı qardaşlıq bağını nə tarixin şimdiki Türk-Rus müxadinəti kibi təsadüfi vəqə epidozları, nə də bir taqım əşxasın siyasi xətaları çözəməz!".*

*Elçibəy bütün qanı, canı ilə türkçü idi.*

*"Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridır. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir" - Heydər Əliyevin bu sözləri türkçülüyün alovlu təbliğatçısı olan böyük Cavidə məhəbbət və ehtiramın ifadəsidir. Bu, həm də türkçülüyə olan sevgidir.*

*Bəli, bu bağı illərdir qıra bilmirlər.*

*O yolun üstündən gedir bu günün güclü qardaş xalqları.*

*Rəcəb Tayyib Ərdoğan da, İlham Əliyev də.*

*O günün qardaşlığı bu gün də davam edir.*

*Bu gün Rəcəb Tayyip Ərdoğanın və Türkiyə xalqının bizə böyük dəstəyi həmin yolun davamıdır.*

*"Hazırda Qarabağda bir çox yerlər işğaldan azad olunub. Türkiyə olaraq bütün qəlbimizlə Azərbaycanın yanındayıq. Azərbaycanın mübarizəsinə dəstək vermək bütün qürurlu dövlətlərin borcudur. Dünya quldur dövlətlərdən xilas edilməsə, bəşəriyyətin davamlı sülh və əmin-amanlığa qovuşması mümkün deyil. Zəfərədək azərbaycanlı qardaşlarımızın yanındayıq" - Rəcəb Tayyib Ərdoğan.*

*Türkiyənin Cümhuriyyət bayramı bizim də bayramımızdır.*

*Türkiyənin qələbəsi bizim də qələbəmizdir.*

*Siz fransızı-zadı boş verin.*

*"Bu gün Cümhuriyyəti elan edəcəyiz!".*

*Zəfərimiz mübarək!*

## Demokratların anket əndişəsi - Biden hələ ki öndədir



**ABŞ-da 3 noyabrda keçiriləcək seçkilərə az qalmış anketlərə görə Biden Trampı 12 bal qabaqlayır. Ancaq kritik əyalətlərdə aradakı fərq azalır.**

2016-cı ildə keçirilən seçkilərdə ölkə üzrə 3,5 bal öndə olan Joe Biden rəqibi Donald Trampı qabaqlasa da, Demokratlar Partiyası 2016-cı ildəki aqibəti yaşamaq istəmir. Çünki 2016-cı ildəki seçkilərdə Demokratlar Partiyası əyalətlərdə yetəri qədər nümayəndə qazana bilməmişdilər. Amerika seçki sisteminə görə daha çox nümayəndə qazanan seçimin qalibi olur. "Floridanı götürən seçkini qazanır" sözünə inanan Biden və Tramp son günlərdə bu əyalətdə fəaliyyətlərini artırıblar. 29 nümayəndəyə sahib Florida bu baxımdan çox vacibdir.

Kritik olaraq adalandırılan digər 3 əyalət isə Miçiqan, Pensilvaniya və Viskonsin əyalətləridir. Əvvəlki seçkilərdə Tramp sürpriz edərək bu əyalətlərdə az fərqlə önə çıxmışdı.

**Eminquey**

## Milli Qəhrəmanın oğlu: İgid oğulların qanını yerdə qoymuruq



**Qubadlını işğaldan azad edən və şəhərə ilk girən hərbçilər arasında Milli Qəhrəman Əliyar Əliyevin oğlu hərbçi Emin Əliyev də var. E.Əliyevin bu barədə təəssüratları:**

**"Biz bu gün həm də ona görə qürurluyuq ki, atam Əliyar Əliyev kimi birinci Qarabağ döyüşlərində şəhid olan igid oğulların qanını yerdə qoymuruq.**

**Bizə döyüşmək üçün ruh yüksəkliyi verən bilirsiz nədir?**

**O torpaqlarda haqqı olan insanların haqqını geri qaytarmağa çalışmağımız.**

**Qarabağın hər qarış torpağını geri qaytarandan sonra atam kimi yüzlərlə igid oğulların haqqını vermiş olacağıq. Bu torpaq o zaman bizə halal olacaq".**



**Faiq QİSMƏTOĞLU**
**Əməkdar jurnalist**

# QATİLLƏR

... Bəzən elə hadisələr baş verir ki, insan oğlu bunu görəndə yerində donub qalır. Yerində donub qalmasın, neyləsin? Çünki insanlığa sığmayan və eyni zamanda, çox dəhşətli bir faciələr törədən məxluqa heç vaxt adam demək, insan demək mümkün deyil. Uşağı, qadını, qocanı və dinc sakinləri qətlə yetirən məxluqlar zinadan törəniblər. Və onlar anasının əmcəyini kəsənlərdir. Gərək adamın da, dövlətin də düşməni olanda mərd olsun. Türk kimin düşmənidirsə, onların bəxti gətirib. Ən azından ona görə ki, Türk heç vaxt dinc sakinlərə güllə atmayıb... Türk heç vaxt uşağı, qadını güllə-baran eləməyib... Türk heç vaxt fəth etdiyi məmləkətin şəhərini, kəndini yerlə-yeksan eləməyib, dağıtmayıb. Və o xalqların qədim abidələrinin, tarixi keçmişinin bir kərpicini də tərpətməyib. Hər şey olduğu kimi qalıb. Və hər şey də Türkün ədaləti, haqqı və Allah sevgisiylə toxunulmaz durub. Ona görə də türklərin fəth etdiyi ölkələrin xalqları onlara nifrət bəsləməyib.

... Bizim qonşu sarıdan bəxtimiz gətirməyib. Bunlardan da ən əclafı, ən binamusu, ən yaramazı ermənilərdi. Adam məəttəl qalır ki, bu qədər millətin arasında bir insan, bir humanist, bir adam balası tapmaq olmur. Elə hansını dindirirsən, böyük Ermənistan xülyasından danışır... Hansı ilə söhbət eləyirsən, deyir ki, Allah-Təala bizim milləti başqalarından daha çox istəyir... hansının ağzını arayırsan, bəyan edir ki, biz millət kimi çox güclüyük. Ancaq elə ki, bir balaca tarixə səyahət edirsən, görürsən ki, bu millətdən, bu xalqdan mərdiməzarı, yaramazı, şərəfsizi yoxdur. Çünki onlar şeytandan yaranıb və şeytana da xidmət eləyib.

Erməni ordusunda xidmət edənlər əsgər deyillər. Onlar baş kəsən, qan tökən, qoca, uşaq demədən qarşısına çıxanı qətlə yetirən, qaniçən terrorçulardı. Gəncə hadisələrini də, Bərdə də baş verən son günlərin qanlı faciələrini də bu terrorçular törədiblər. Terrorçu üçün insanlıq, adamlıq, humanistlik anlayışı yoxdur. Onlar üçün bir həyat tərzi var: aldıqalrı pulun müqabilində hər hansı yaşayış yerinə raket atsınlar, dinc sakinləri artilleriya atəşinə tutsunlar və hətta imkan tapanda terrorçu dəstə yaşayış məntəqəsinə girib partlayış törədərək çoxlu sayda insanları qətlə yetirsinlər! Tutacaq onları o partlayışda, o raket atəşində faciəli surətdə həlak olan uşaqların, qocaların ahı-naləsi! Bunun geci-tezi var! Üstəlik də heç bir saat keçmir, Azərbaycan Ordusu bu qisası o terrorçuların özündən, erməni könüllülərindən alır. Yəni onları Azərbaycan Əsgəri it kimi gəbərdir.

Biz düşmənlə öz dilində danışmalıyıq. Onlar bir neçə il bundan qabaq Füzulinin Alxanlı kəndində balaca Zəhranı qətlə yetirəndə,



Gəncədə körpə uşaqların həyatına son qoyanda, Bərdəni bir neçə gün dalbadal raket atəşinə tutanda, azyaşlı uşaqlar qətlə yetiriləndə bu binamuslar sevindilər. Bərdədə 7 yaşlı Aysunun partlayış zamanı həlak olması, onunla yanaşı, 21 nəfərin dünyasını dəyişməsi, 70-ə yaxın insanın ağır yaralanması bir daha ermənilərin bizim xalqa qarşı genosid siyasətini həyata keçirməsini təsdiqlədi. Biz humanistlikdən əl çəkməliyik... uşaqlarımızı öldürənin uşağını öldürməliyik... qocalarımızı, qadınlarımızı qətlə yetirənlərin qocalarını, qadınlarını məhv etməliyik. Çünki başqa çıxış yolu yoxdur. Biz mərdlik göstərdikcə, onlar namərdlik eləyirlər.... Biz kişilik göstərdikcə, onlar nakişilikdən əl çəkmir... Biz humanistlik etdikcə, onlar vəhşiliklərini davam etdirir...

Yazıçı-publisist, rəhmətlik Cəlal Bərgüşadın bu yerdə bir fikri yadıma düşür. Cəlal Bərgüşad deyərdi ki, qağa, mənə biz batırana mən qıyıq batırıram. Görsün ki, o, bizin yeri məni necə ağrıdır. Elə ki, qıyığın ağrısını hiss eləyir, bir daha mənimlə işi olmur. Cəlal Bərgüşadın sözü olmasın, bax, biz də ermənilərə, lap onların dinc əhalisinə də başımıza açılan faciəni mütləq qaytarmalıyıq. Qoy onlar da qətlə yetirilmiş uşaqlarını, qadınlarını, qocalarını görsün və ürəkləri dağlansın. Onsuz da bizim ürəyimizi onlar 200 ildir dağlayırlar və bu gün də dağlamaqda davam edirlər. Əgər onlar görsələr ki, biz bu cavabı veririk, istər-istəməz çəkinməli olacaqlar.

Türkiyənin Cümhurbaşqanı, xalqımızın, prezidentimizin dostu Rəcəb Tayyib Ərdoğan (Allah onu qorusun!) çıxışında dedi ki, bu gün Qarabağda 2000-ə yaxın PKK və YPG terrorçusu var. Və o terrorçunun hər birinə Ermə-



nistan 600 dollar pul ödəyir. Bu terrorçular indi Qarabağın bütün dağlarına, dərələrinə səpələniblər, döyüşə atılıblar. Hamısının da Azərbaycan Ordusu artıq yerini müəyyənləşdirib və it kimi gəbərdir. Hətta onların bir neçəsinin telefon danışığını Dövlət Təhlükəsizlik Xidməti ələ keçirmişdi və bu danışığı sosial şəbəkədə yaymışdı. Həmin danışıqdan da göründüyü kimi, terrorçular aldandıqlarını bəyan edirlər. El dilində demiş olsaq, onlar Qarabağa kabab iyinə gəliblər, görüblər ki, eşşək dağlayırlar. İndi nə geriyə çəkilə bilirlər, nə də irəli getməyi bacarırlar. İrəlidə Azərbaycan əsgəri onları it kimi gəbərdir, arxada da döyüşdən qaçanları ermənilərin özləri güllələyir. Elə terrorçunun axırı da belə olacaq. Qarabağda döyüşən və kabab iyinə gələn heç bir terrorçu Azərbaycan Ordusundan canını qurtara bilməyəcək. Nə vaxta qədər gec deyil, onlar rədd olub gəldikləri yerə dönməlidirlər. Dönməsələr, o torpaqlarda it kimi öldürüləcək və leşlərinə də Ermənistan sahib çıxmayacaq.

Böyük Üzeyir Hacıbəyov "Partapart" felyetonunda yazırdı ki, otururam, bir də eşidirəm ki, bir müsəlmanı öldürdülər. Dururam, yenə eşidirəm ki, bir müsəlmanı qətlə yetirdilər. Uzanıram, yenə səs gəlir ki, bir müsəlmanı vurub o dünyalıq elədilər. Sanki müsəlman öldürmək iki dırnaq arasında bit, birə öldürmək kimi asan bir işdir. Bu qədər müsəlman öldürülür, bir adamın səsi çıxmır...

Bu gün də dünyada müsəlmanları qırırlar, qulaqlar kar, gözlər kor, dillər lal olub. Dünya təşkilatları, BMT dillənib demir ki, ay ermənilər, niyə Gəncədə, Tərtərdə, Goranboyda, Ağcabədidə, Bərdədə dinc insanları - uşaqları, qadınları, qocaları qətlə yetirirsiniz? Bir ölkə,



xüsusən də xristian ölkəsi dilə gəlib demir ki, ay ermənilər, bəsdir bu dinc türkləri, azərbaycanlıları qırıb çatdınız. Hamısı özünü lal, kar, kor kimi aparır...

Amma bir xristianın, bir erməninin ayağına daş dəyəndə, burnu qanayanda onların "dayıları, "əmiləri", "biləri" tumanlarını başına atıb qışqırıb-bağırırlar ki, ay dünya gəl, bizi türklər qırdı! Və dünya da xristianların hegemonluğundan ibarətdir. Bu hegemon dövlətlər başlayırlar bütün beynəlxalq təşkilatlarda yalançı erməni hay-küyünü müdafiə etməyə. Hətta burnu qanamayan erməniyə görə, müsəlman dövlətinə sanksiya da tətbiq olunur. Ancaq ermənilər Xocalıda minlərlə insanı qətlə yetirir, Kəlbəcərdə, Laçında, Füzilidə, Ağdamda dinc sakinləri güllə-baran edir, Gəncəni, Bərdəni topla, mərmiylə atəşə tutur, çoxlu sayda insan həlak olur, beynəlxalq təşkilatlar və super dövlətlər qulaqlarını eşşək qulağı kimi sallayıb dururlar. Guya heç nədən xəbərləri yoxdur. Hansı ki, super dövlətlərin kosmosdakı müasir avadanlıqları, Azərbaycanda yolda hərəkət edən avtomobilin nömrəsini də göstərir.

Ermənilərin bir "silahı" var: ağlamaq! Hətta bu "silah" onlara digər silahlardan daha çox xeyir gətirir. Hətta onların yaramaz baş naziri beş-on gün bundan qabaq fahişəlik edib qışqırıb bağırırdı ki, Azərbaycan Ordusu erməni xalqını qırır. Hələ Azərbaycan Ordusu erməni xalqına bir güllə də atmayıb. Azərbaycan Ordusunun məhv etdiyi Qarabağdakı terrorçulardı, bir də ermənilərin sayı-hesabı bilinməyən ağır texnikaları. Çünki bizim Ordu qisası mülki əhalidən deyil, Qarabağda döyüşən erməni əsgərindən və terrorçularından alır...

Onlara heç vaxt xalq və dövlət demək mümkün deyil. Çünki Ermənistanda bütün dövrlərdə cinayətkar rejim hakimiyyətdə olub və ətrafına da terrorçu qüvvələri toplayıb. Bu terrorçu qüvvələrin gücü heç vaxt Azərbaycan Ordusuna, Azərbaycan əsgərinə çatmayıb. Onlar öz gücünü uşağa, qadına, qocaya göstəriblər. Dünya ki, bunu görür, çox təəssüf, dünya bunu görsə də, terrorçu Ermənistana "dur!" demir.

... Uşaq qatilləri, qoca qatilləri, qadın qatilləri beynəlxalq təşkilatlar tərəfindən cəzalandırılmır. Ali Baş Komandan, Azərbaycan Prezidenti cənab İlham Əliyev Xocalı faciəsini xatırlayarkən deyib ki, beynəlxalq təşkilatlar erməniləri Xocalı faciəsini törətdiyinə görə, cəzalandırmadı.

Biz onları cəzalandıracağıq. Xocalı camaatını qətlə yetirən əksər erməni terrorçuları məhv edilib öz cəzalarını alıblar.

Bərdədə, Gəncədə, Tərtərdə, Goranboyda, Ağcabədidə dinc sakinləri qətlə yetirənlərin də taleyi onlar kimi olacaq.

Uşaq qatilləri, qoca qatilləri, qadın qatilləri Ordumuz tərəfindən it kimi gəbərdiləcək. Ermənilərin havadarlarının kimliyindən asılı olmayaraq, bu cinayəti törədənlərin biri də cəzasız qalmayacaq.

Böyük cəzanı Allah verəcək! O biri cəzanı isə Azərbaycan Ordusu! Bizim hər qələbəmiz, hər uğurumuz erməninin başına bir dəyirman daşı kimi düşür və onun altından çıxa bilmir. Bu yaramazlar da döyüşdə itirdiklərini dinc sakinlərdən çıxmaq istəyirlər. Bizim qisasımız hələ qabaqdadır. Ermənilər bunu tezliklə görəcəklər və it kimi peşman olacaqlar.



# MURDARLARI İSTƏMİRİK!

***«Allah, yolunu azmış toplumu (düz) yola vadar etməz».***

*Tövbə surəsi, 24-cü ayət*

**Hay adlanan bu azğın toplum üçün deməyə söz tapa bilmirəm. Həm tələbəlik illərimdə, həm də sonrakı dönəmlərdə öz tariximizi də, dünya tarixini də müəyyən səviyyədə araşdırdım. Bütün tarixi mənbələr hayların Hindistandan gəlib İlluriyada məskunlaşdığını və mazarrat bir xalq olduqlarına görə də oradan qovulduqlarını, Anadolunun yerli Türklərinin onları qonaq kimi qarşıladığını qeyd edib.**

1828-ci ildə qol çəkilən Türkmənçay sazişindən sonra kütlə halında Qərbi Azərbaycan torpaqlarına ruslar tərəfindən köçürüləndə bu dəfə Azərbaycan Türkləri onları qonaq kimi qəbul etmiş, süfrəsində yer ayırmış, daxmasını tikəndə də, dara düşəndə də hər cür köməkliyi etmişdir.

### *Bəs bu xalq özünə edilən yaxşılıqlar qarşısında neyləmişdir?!*

Yüz illər boyu Səlcuq imperiyasının, Osmanlı dövlətinin qoltuğunda bir əli yağda, bir əli balda yaşamış, ta ki xüsusilə amerikalı, ingiltərəli, fransalı missionerlər və rus siyasilər onların saqqızını oğurlayana kimi.

Birinci Dünya Müharibəsi zamanı ayağa durmuş və onlara ”sadiq təbəqə” deyən Osmanlı dövlətinə asi olmuşlar, ordu cəbhədə düşmənlə döyüşərkən heç nədən xəbəri olmayan məsum kəndlilər, qəsəbəlilər hay terroristlərinin hücumlarına məruz qalmışdır. İnsanları kütləvi şəkildə soyqırımla məhv etmiş və onlardan maşa kimi istifadə edən ruslar kütlə halında hayları köçürüb gücsüz və hamisiz qalmış Azərbaycanın qərb hissəsindəki torpaqlarında məskunlaşdırmışdır.

***Özlərinə yer edən kimi də bu dəfə Anadolu Türklərinə etdiklərinin eynisini Azərbaycan Türklərinə etməyə başlamışlar. Onlar silahlı və arxalı, Azərbaycan isə təklənmiş halda və əli yalın. Onlar arxalı köpək idi və Azərbaycan kimi hamisiz qalmış qurdu basmışdılar. Qərbi Azərbaycan Türklərini kütləvi halda ağaları rusların dəstəyi ilə köçürmüşlər. Bununla da kifayətlənməmiş, 90-cı illərdə ayağa duraraq yenə təklənmiş Azərbaycanın məsum insanlarını soyqırımla məhv, torpaqlarının da 20 faizini işğal etmişdir. Bu bilinən tarix...***

Xocalı Soyqırımı yaradıldığı zaman dünya üç meymun rolunu oynayırdı, hələ də oynayır. İkinci Dünya Müharibəsindən sonra dünyanı ikiyə bölən ABŞ və Rusiya zahirdə bir-birinə düşmən kimi görünür, ancaq elə deyil, bunlar bir-birlərinin ən səmimi dostlarıdır. Dünyaya ağalıq edən ABŞ və Rusiya o qədər azğınlaşıb ki, tamamilə insanlığını da itirmişdir.

### *Avropa çəm-xəm etsə də,*

***onlar dəyirman kimi öz bildiyini oxumaqdadır. Axmaq Makron isə axurda yatıb sultan Məcid yuxusu görür. Rusiya isə yeni-yeni müstəmləkələr əldə etmək ehtirasıyla yanır. Ancaq Çin və Hindistanın qarşısıalınmaz yüksəlişi hər iki imperialist qansoranı da hədsiz narahat edir. Edəcəkdir, indən belə körpülərin altından çox sular axacaq. Rusiya yeni raket sınaqları keçirərək dünyaya gözdağı vermək istəyir. O silahlardan yalnızca ruslarda yoxdur. Artıq rus imperiyasının dağılma çağı gəlib çatıbdır, Putin dağılışı biraz ləngitdi. Onları ayaqda saxlayan əsas gəlir neft və qazdır, ancaq Çin, ABŞ-ın təzyiqi ilə Rusiyadan aldığı qazı və nefti 35 faiz azaldacaqdı. Avropa da Orta Şərqdən İsrail üstündən çəkiləcək bir kəmərlə qaz və neft ehtiyacını ordan təmin edəcəkdi. Rusiyanın gələcəyinə yazığım gəlir.***

Otuz ildən artıqdır Azərbaycanla sıx əlaqədəyəm. 1988-ci ildəki Azərbaycan işıq sürətilə özünü əvəz edib. Bunu bacaranlara halal olsun, eşq olsun. Və Azərbaycan ordusu artıq 1990-cı ildəki adı olub özü olmayan ordu deyil. Xocalı Soyqırımı olduğunda Azərbaycan milli ordusu deyilən bir güc yox idi. Milli ordu adı qoyulan gücdə cəmisi 150 nəfər vardı, qalan döyüşçülərin tamamı milis qüvvəsiydi. Ancaq bu gün Qafqazın yeganə çağdaş, düşmənə qənim, dosta qürur hissi bəxş edən ordusu yaranıbdır. Qərbi Azərbaycandan qətliamlarla qovulan Türklərin övladları, Xocalı Soyqırımını yaşayan ataanaların Məhmətçikləri düşmənə döyüş meydanında cəngavərlik nədir onu sübut edir. Hayların zoru isə məsum qadınlara və uşaqlara, dinc əhaliyə bomba tullamağa çatır, bir də döyüş meydanında ağalarının məccani verdiyi texnikanı, silah-sursatı buraxıb qaçmağa...

***Haylar İlluriyadan qovuldular, Qərbi Azərbaycandan da çıxıb rədd olub birdəfəlik getməlidirlər. Qarabağın müqəddəs torpaqlarına hay adlanan bu murdar xalqın tək bir nümayəndəsi belə hətta turist kimi də buraxılmamalıdır.***

Haylar və onları dəstəkləyənlər Azərbaycanın işğal edilmiş kənd və şəhərlərinə vurulan ziyanların, dağıdılan ocaqların, istismar edilən sərvətlərin tamamı üçün təzminat ödəməlidir. Xankəndi, Ağdərə və digər yerlərdən 90-cı illərdə kütləvi şəkildə çıxarılan ailələr öz dədə-baba evlərinə, murdarlar qovulan kimi, yerləşdirilməlidir. Haylar indilik 1918-ci ildə dünya dövlətləri tərəfindən qəbul olunmuş sərhədlərinə çəkilməlidirlər.

### *Onlar qonşuluğumuzda*

dinc yaşayıb yenə bizlərə nökərlik edib çörək pulu qazanmaq istəyirlərsə, 1920-ci ilin yanvar ayının 11-də Paris Sülh Konfransında qəbul olunan sərhədləri qəbul etməlidirlər və rusların zorbalıqla əlimizdən aldıqları dədə-baba torpaqlarımızı, Göyçəni, Zəngəzuru, Dilicanı və digər yerləri sülh yoluyla qaytarmalıdırlar. Qaytarmasalar özləri bilər. Onsuz da indiki torpaqlarında yaşaya bilmiyəcəklər, gec-tez buraları tərk etməli olacaqlar.

İran özünü müsəlman dövlət kimi tanıdır və adına ”İslam Cümhuriyyəti” titrini yapışdırıb. Azərbaycan murdar hayları işğal etdikləri torpaqlarından çıxararkən İranın həqiqi üfunətli siması bir daha özünü göstərdi. Otuz ilə yaxındır haylara elektrik və qaz təmin edən, onların işğal etdikləri bölgələrdə kökləşməsi üçün hər cür köməkliyi edən İran dövləti beləliklə heç də İslam dininə qulluq etmədiyini göstərmiş oldu. Maidə surəsinin 51-ci ayətində Tanrı xristianları dost tutanlara səslənib və onları dost tutanların xristianlardan fərqi olmadığını buyurubdur. Növbə sənə də gələcəkdir...

Bilənlər bilməyənlərə desin: Türkiyə 1980-ci illərin Türkiyəsi deyil. Azərbaycan da 1990-cı illərin Azərbaycanı deyil.

**Zülm heç vaxt əbədi olmayıb və olmayacaqdır. Xocalının qisası hələ də alınmayıb, onun alınacağı gün də gələcəkdir...**

## Müsəlmanlar ayağa qalxdı: Makrona etiraz



**Cənubi Afrikadakı müsəlmanlar islam əleyhinə bəyanatlara və Fransa Prezidenti Emmanuel Makron başda olmaqla, bəzi rəsmilərin Məhəmməd peyğəmbəri hədəf alan karikaturanı müdafiə etməsinə etiraz ediblər. Müsəlman Məhkəmə Şurasının üzvləri ölkənin Keyptaun şəhərindəki Fransa Konsulluğunun qarşısında keçirilən nümayiş zamanı "Peyğəmbərimə toxunmayın" və "Fransız məhsullarını boykot et" şüarları səsləndiriblər.**

Feysbukda canlı yayımlanan etiraz zamanı iştirakçılar fransız səlahiyyətlilərinin üzr istəməli olduqlarını bildiriblər.

**MEHRİBAN**

*Yılmaz ÖZDİL*

# FRANSA



***Fransaya çox hirsləndik.***

***Liderimiz Ərdoğan ağzını açdı, gözünü yumdu.***

***"Siz deyilmisiniz Ruanda da insanları qətlə yetirən?".***

***"Siz deyilmisiniz Əlcəzairdə insanları qətlə yetirən?".***

***"Siz deyilmisiniz Afrikanı işğal edən?".***

***"Siz qatilsiniz, qatil" - deyə bağırdı.***

***Əlbəttə, hamısı insane övladıdır, kimsə kimisə öldürməsin.***

***Fransanın tarixdəki günahlarını saymağa başlasaq, Əlcəzairlə, Ruandayla, Afrikayla qurtararmı?***

***Xeyr!***

***Antep niyə Qazidir?***

***Maraş niyə Kahramandır?***

***Urfa niyə Şanlıdır?***

***

***Kimin işğalına qarşı verdik bu sifətləri bu şəhərlərimizə?***

***Kim silah gücü ilə oturdu torpaqlarımızda?***

***

***Türk insanına qarşı qətliamın ənkəsini kim törətdi?***

***

***Antepdə "14 şəhid abidəsi" var. Kuvayı Milliye dəstəsinə çörək, su daşıyarkən əsir düşüb bir-birilərinə bağlanaraq yaylım atəşilə güllələnən, cansız bədənləri süngüyə keçirilən, hələ 12 yaşına yenicə çatmış 14 uşağımızın xatirəsinə tikildi o abidə. Kim qətlə yetirdi onları?***

***"Düşmən ancaq mənim cəsədimin üstündən keçər bu torpaqlara" deyən Şahin bəy hansı düşmənə qarşı bədənini sipər etdi?***

***Barikadalar qurub, məhəllə-məhəllə, küçə-küçə vuruşmadıqmı Antepdə? Kiminlə vuruşduq?***

***Əhali namazda ikən məscidlərimizi top atəşinə tutanlar kimlər idi?***

***Qadınlarımız toxumluq olaraq anbara yığılan zərdəçal tumlarını qırır, əzir, kəpəklə qarışdırıb çörək bişirirdi, atlar, eşşəklər tükənmişdi, hətta pişikləri yeməyə də məcbur olduq. Antepi bu cür ölümünə mühasirə altında tutan kim idi?***

***Maraş Qalasındakı Türk bayrağını parça-parça edib endirən kim idi?***

***Maraşda kəndlərimizi kim yandırdı?***

***Təkkə kilsəsini silah anbarı olaraq istifadə edirdilər, eynən qala kimi qoruyurdular, buranı azad edə bilmək üçün özünü fəda edəcək, tərəddüd etmədən ölümün üstünə yeriyə biləcək bir könüllüyə ehtiyac var idi. Yusuf çavuş "mən gedərəm" dedi, qapı kimi pəhləvan idni, belinə dinamitləri sarıdı, havanın qaralmasını gözlədi, qaranlıq düşən kimi binanın arxasına yaxınlaşdı, ön qapıda növbə çəkənlərə görünmədən dırmaşmağı bacardı, dama çıxdı, kirəmitləri qaldırdı, süngü ilə oya-oya dəlik açdı, kəlimeyi-şəhadət gətirib kibriti yandırdı, fitilləri odladı, dinamitləri ard-arda kilsənin içinə atdı, qulaqları kar edən bir gurultu qopdu, silah-sürsat anbarına çevrilən kilsə yox oldu, Yusuf çavuş şəhid oldu. KİMə qarşı şəhid oldu?***

***Kuvayı Milliyenin sıralarında Urfanın qurtuluş mübarizəsinə qoşulan iraqlı ərəb sülalə lideri Uceymi Sadun paşa hansı ölkənin ordusu ilə döyüşdü?***

***Adanada sözün hər mənasında Türk soyqırımı edən, müdafiəsiz sivilləri qətlə yetirən, ağaclara asan, quyulara atan, qadınlarımıza ölənə kimi təcavüz edən, qadınlarımızın bilərziklərini, sırğalarını yağmalamaq üçün əllərini, qulaqlarını kəsən, məsələn, Kozanda Hamdi əfəndini, poçtalyon Ali Rza əfəndini, təqaüdçü yüzbaşı Mehmet beyi diri-diri sobada yandıran kim idi?***

***Kiprdəki hərbi düşərgədə ingilislər tərəfindən yetişdirilən 120 min erməniyə uniforma geydirib üstümüzə göndərən kim idi?***

***Sevr müqaviləsində Adana, Antep, Urfa kimə verilmişdi?***

***Mersini kim od-alova verdi?***

***Hatayı bizə qəzetdən yığdığımız kuponla verdilər?***

***İstanbulun fəthini bayram etmək qadağa olunanda, elə İstanbulda hansı ölkənin devrilməyinin ildönümü bayram edilirdi?***

***Türk milləti qətlə yetirilərkən "Liberte, Egalite, Fraternite", yəni "azadlıq, bərabərlik, qardaşlıq" şüarları ilə Taksimdən rəsmi keçid edənlər kimlər idi?***

***Düzdür, köhnə yaraları deşməyin faydası yoxdur, amma istədim ki, Ruanda, Əlcəzair, Afrika ilə yanaşı bunları da mən yada salım.***

***Dilimizə uyğunlaşdırdı:***
***Eminquey***

# QƏLƏBƏ GƏTİRƏN PAYIZ

## Bu, bir ovqat şeiridi

*Üz-üzə oturmuşuq. Əslində bu, üz-üzə otrumaqdan daha çox bir-birinin içinə bələd olan iki dostun sözü ortaya qoyub onun dağı arana çəkməsidir. Yəni hər görüşümüzdə olduğu kimi, indi də SÖZdən danışırıq... onun dünənini, bu gününü, sabahını duyduğumuz və arzuladığımız formada öz ələyimizdən keçiririk.*

*Yəni siz də xatırlayırsiniz, mən də həmin bu söhbətin bir hissəsini sizə təqdim etmişdim. Təqribən bir ay öncə Kəramətlə etdiyim söhbətin bir hissəsini sizinlə bölüşərkən vurğulamışdım ki, xeyli çəkən söhbətimiz sözün dörd tərəfinə uzanıb getmiş və bir az pərakəndəlik yaranmışdı. Amma əslində bu, pərakəndəlikdən daha çox açıq bir şəkildə Kəramətdən qoparmaq istədiyim fikirlərdən məqamlar, fraqmentlərdi. İndi o fraqmentlərin oxucusu olmağa dəvət edirəm sizi. Beləliklə:*

**- Kəramət, sən mütaliəyə önəm verdiyini və hər bir yeni əsərdə yeni nələrsə axtardığını söylədin. Bir də görüm, axtardıqlarını tapa bilirsən?**

- Birbaşa deyim ki, hər zaman istəyim çin olmur. Kitabın görkəmi, tərtibatı, hətta müəllifə olan böyük simpatyam bəzən təəssüf doğurur. Öz-özümə deyirəm ki, əgər yaza bilmirsənsə, deməyə sözün yoxdursa, bu pulunu niyə göyə sovurursan? Niyə kağız parçası edirsən? Onun əvəzinə özünə, ailənə, dostlarına faydalı bir iş görərsən. Yəni pulunu onlara xərcləyib bilərsən ki, nəyəsə nail oldun. Heyf ki, biz bəzən söz imkanımızı nəzərə almırıq, hesablamırıq. Sanki kitab müəllifi olmaq "şair" olmaq bir sosializm yarışıdı. Bacaran da, bacarmayan da, sözü olan da, olmayan da meydandadı.

**- Məncə bu çoxluğun bir müsbət tərəfi də var: o da seçim etmək, ələmək fürsəti vermək tərəfidir...**

- Olsun. Amma oxucu da yazıqdı axı. Gərək vaxtını, enerjisini sərf eləyib o kitabları vərəqləyə və görə ki, kim kimdi?! Kimin sözü hara qədərdi! Bu mənada mən çoxluğun, yəni kitab bolluğunun tərəfdarı deyiləm. Amma o da bir gerçəkdi ki, əl-Həzrət zaman ən böyük hakimdi.

**- Kəramət, sənin söylədiklərinə istinad etsəm, onda bir şeirini xatırlamalı oluram. Özün yazmısan ki, "Ömür yorulub". Onda belə çıxır ki, yaşlaşmısan, yaşamaqdan yorulmusan...**

- Xatırladım o şeiri. Tənqidçi dostum Nadir Adiloğlunun tez-tez işlətdiyi "Yaman yorulmuşam, oğlan" sözləri günlərin bir günü içimi tərpətdi. Çünki Nadir Adiloğlu mənim üçün ölmədi, sadəcə, yoruldu. Və mən də yazdım:

***Ölülər şaqqanaq çəkər ölümə.***
***Bu qocalmayan qoca kişi,***
***Dustaqlar təzə dustağı***
***Necə sevirsə,***
***Eləcə sevindilər***
***...xəbərin çatınca.***

***Adam belə içər ölümü,***
***Ləzzətlə, qurtum-qurtum***
***Hərdən damcılayar dodaqlarından.***

***Şahlar da sınıb oturar,***
***Oturar şahlıq taxtında.***
***Qəbrin dikinə qazılsın***
***Sınıb əyilməyən kişi,***
***Torpağın sınıq vaxtında.***

***Xəzəl adamları külək gəzdirir.***
***Gözləriniz indən belə***
***Yaşıl yarpaq gəzəcək.***
***Budağa qonmaqdan qorxan quşları***
***Qara torpaq çəkəcək.***

Bu şeirimlə Nadir Adiloğluna etiraf etdim ki, adamlar ölmürlər, yorulurlar. Söhbət o adamlardan gedir ki, onlar öz sahələrində gərəklidilər, işıqdılar, öndədilər və ən vacibi dipdiridilər. Yəni sadəcə, ayaq üstündə durub nəfəs almırlar, dipdiri olmağı Vətənə də, cəmiyyətə də, hər kəsə faydalıdılar. Bax, bu mənada mən də özümü artıq yorulanların sırasında görürəm.

**- Zənnimcə, bu məqamda bir az tələsirsən. Çünki sən özün bir şəxsiyyət olaraq, həm də bir şair olaraq hər zaman öz nöqtəndə və öz yerində görünürsən, axtarılırsan. Bu da o deməkdir ki, ədəbiyyatda Kəramət hələ çox gərək olacaq, hələ çox aranıb-axtarılacaqdı, yeri görünən adam kimi.**

- Təşəkkür edirəm. Bu bir dost qəlbinin ifadəsidi. Lakin elə gerçəkliklər var ki, onu biz müəyyənləşdirmirik. Bax, bu mənada barəmdə dediyin xoş ifadələri, səmimi fikirləri zamanın ixtiyarına verək. Çünki zaman ən böyük hakimdi.

**- Başa düşürəm. Odur ki, sən deyən olsun. Lakin sən tez-tez vurğulayırsan ki, bir ağac əkməyən, bir koma tikməyən, ortaya bir söz qoymayan elə böyük iddialarla adamın üstünə gəlir ki, heyrətlənirsən...**

- Hə, mən demişəm bunu. Hətta Türkiyədə, ədəbi camidə söhbət düşəndə demişəm ki, əlimdə bir şey yoxdu gözümə soxmağa. Amma elə danışırsan, sanki bütün ədəbiyyat sənin çiynindədi. Öncə əlindəkini, yəni yazdığını göstər mənə, sonra iddialarını sərgilə. Çünki ortaya qoyulan faktdı. Bax, Bakıya nəzər salaq. Hələ də İçərişəhərə tərəf yolu düşən hər kəs köhnə binaların qarşısından keçəndə xatırlayır ki, bu binanı kim tikdirib, kimə aid olubdu. Bu mənada boş-boş danışnıb zəhlə tökməkdən, qıcıq yaratmaqdandısa, başını aşağı salıb istedadın, qabiliyyətin səviyyəsində ortaya əsər qoymalısan. Mən həmişə bunu istəmişəm, bunun tərəfdarı olmuşam.

**- Kəramət, sənin bir şeirin də var. Adı "Əyri düzgün"dü. Yəqin elə indicə söylədiyin fikirlərdən doğulub o şeir. Yazmısan ki:**



***Torpağa baxdıqca***
***əyilir başdaşları.***
***Günaha batdıqca əyilir adam.***
***Məni düz saxladı dar ağacları,***
***Bir qızıl güllənin haqladığı yer.***
***Sınmağa qoymadı yazdığım şeir.***

***Xıncım-xıncım olub gedərdim yoxsa,***
***Qoymadı uşaqlar, dedilər: "Şax dur!".***
***Allahın əmrindən çıxıb gedirəm,***
***Mən uşaq əmrindən çıxa bilmirəm.***

***Əyriyə tutulub qonur gözlərim,***
***Əyricə güzgüdür gözlərin indi.***
***Dünya adamısan, özünə baxma.***
***Özünə-sözünə baxıb gülərsən,***
***Ya da ki, çırparsan bir əyri daşı,***
***Qonur gözlərimə - əyri güzgüyə.***

***Əyilir, əyilir bu Yer kürəsi***
***Üstündə ağacı, quşu əyilir.***
***Birini qulağı, birini gözü,***
***Yüzünün, mininin işi əyilir.***

***Bu dünya əyriyə öyrəşib, vallah***
***Düz adam görüncə,***
***Xortlayıb gələni görür elə bil.***
***Güzgü önündəyəm, kimdi bu adam,***
***Səhərdən sözümə gülür elə bil.***

- Xatırlatdın mənə bu şeirin yazılma məqamını. Həqiqətən həyatda elə anlar olur ki, güzgüyə təkrar-təkrar baxmalısan. Təbii ki, burda söhbət məcazi güzgüdən gedir. Yəni özün-özünə baxmalısan, özün-özünə içində bir dar ağacı qurmalısan. Və ordan özünü asanda kiminsə təəssüfləndiyini duysan, deməli, onda sən gərəklisən. Amma bir səs, bir hənir hiss etməsən, deməli, ya yolunu çaşmısan, ya yerində deyilsən, ya da artıq tükənmisən, bitmisən. Məncə bax, içimizdəki bizi göstərən güzgü labüdlükdü. Biz onunla baş-başa qalmağı bacarmalıyıq. Bax, onda biləcəyik ki, ədəbiyyatı, bütövlükdə Azərbaycan sözünü təmsil edə bilərik, yoxsa yox. Yalançı görüntü yaradan iddiaçılar, özlərini söz fədaisi sayanlar, nə bilim hansısa nələrisə yaradanlar olsa-olsa beş-üç qadının şairi ola bilər. Yəni şeir ithaf etdikləri, vəsf etdikləri qadınların. Bir az da öz ailələrinin.

**- Kəramət, söz adamının dövrü olur? Bilrisən bunu niyə soruşuram? Çünki mənim də qəbul etmədiyim qeyri-ciddi bölgü var - altmışıncılar, yetmişincilər, səksənincilər və s.**

- Hə, var belə bir şey. Amma mən də qəbul etmirəm bunu. Mənim üçün altmışıncılar nəslinin təmsilçisi bu gün də yazıb-yaradırsa, o həm də ikimincilərin nümayəndəsidi. Yox, əgər altmışıncıların zamanında yazıb elə orda qalıbdısa, bu artıq missiyasını başa çatdırmaq deməkdir. Ona görə də Nizami, Füzuli, ondan üzübəri Cavid, Səməd Vurğun, Müşfiq, Rəsul Rza bu gün də oxunursa, bu gün də onların poetik fikirləri önəmlidirsə, bunu necə hansısa dövrə, zamana sığışdırmaq olar? Bu poeziya nümunələri bütün zamanlarındı. Bax, elə bizim özümüzü aid etdikləri 80-ci illərin yaradıcılığını gözümüzün önünə gətirək. Onda görərik ki, səksənincilər bu gün də yazırlar.

Deməli, bunlar səksəndə qalmayıblar, adaptasiya olublar ikiminincilərə. Buyursunlar, kimlər iddialıdır, mən onlara bu məntiqi bir də izah edim. Qardaşım, 70-ci illərə aid etdiyiniz müəllifin bu gün ortaya qoyduğu hekayə, şeir, povest hansı çalarıyla, hansı nüanslarıyla 70-ci illərə aid olduğunu göstər. Söz, qələm 60-da da, 70-də də, bu gün də eynidi. Sadəcə, təfəkkürdə və istedadda püxtələşmə gedir və həmin yaradıcı adamlar da öz sözlərini bu gün də ortaya qoyurlar. Bunun başqa bir yozumu yoxdur. Nəhayət, sən məni bu dövrə, zamana aid edirsənsə, onda zəhmət çək, Mirzə Fətəli Axundov ol, Üzeyir Hacıbəyov ol, Cəlil Məmmədquluzadə ol, Cavid ol, Səməd Vurğun ol və s. özün ol və sonra məndən imtina et. Bir halda ki, özün ola bilmirsən, onda yaxşısı budur elə gedib bildiyin işin qulpundan yapışasan.

**- Kəramət, söhbətimizin bu yerində səndən bir cavab da istəyirəm. Ümumiyyətlə, yaradıcılıq nədir səninçün?**

- Hər hansı bir işi görmək, istəyir ev tikmək olsun, şəhər salmaq olsun, yazı yazmaq, rəsm çəkmək, bir sözlə, həyatın bütün sahələrini "yaratmaq" sözüylə bağlıdır - iqtisadiyyat da, elm də, səhiyyə də, ümumiyyətlə, hər şey. Fərdlər həmin sahələri üzrə nəsə yaradır, yeni bir bina tikir, yeni bir rəsm çəkir, yeni bir şeir yazır, yeni nəsə ixtira edir. Bax, bütün bunlar Allahın özündən sonra insana lütf edib bağışladığı yaratmaq qabiliyyətidir. Mən də həmin o yaratmağın, o yaradıcılığın qulpundan tutan bir Allah bəndəsiyəm. Çalışıram ki, yaratdığın normal olsun, gərəkli olsun, sevilən olsun. Bax, bu istəyimin də bəhrəsinə təbii ki, oxucular və zaman qiymət verəcək. Elə oxucuların qiymətinin özü də yaratmaqdı. Mən belə düşünürəm.

**- Kəramət, söhbətimizin bu yerində sənin bir şeirini xatırladım. Yazmısan ki:**

***Külək itik gəzəcək,***
***Daşacaq bu daş səbir.***
***Nə bu yağış kəsəcək,***
***Nə də qurtaracaq bu sentyabr.***

***O başı bu başa ölçdün,***
***Vağzal boşaldı- doldu.***
***Qatar da çıxıb getdi,***
***Bilet əlində qaldı.***

***Gözləmə otağında***
***Hey gözləyib qalasan.***
***kimsə də "getmə" demir***
***Sən də dönüb gələsən.***

***Külək itik gəzəcək***
***Daşacaq bu daş səbir.***
***Haçan yağış kəsəcək?***
***Təqvimdə***
***bütün aylar sentyabr.***

**Niyə məhz sentyabr?**

- Bilirsən, bu bir ovqat şeiridi. Və mən o ovqatın içərisində müəyyən məqamları ifadə etməyə çalışmışam. Görünür, alınıb, ona görə diqqətimi çəkibdi. Qalsın bu şeirin daha geniş yozumu növbəti söhbətimizə...

**... Bəli, indi payızdı. Bizə QƏLƏBƏ bağışlayan payız... həsrətini çəkdiyimiz yurd yerlərinə bizi qaytaran payız... Sentyabr da payızın ilk ayıdı. İnşallah, Kəramətlə bu payızın da çözümünü edərik...**

# "İşğal olunan ərazilərimiz artıq qarış-qarış azad olunaraq bərpa edilir"

**Ötən gün Prezident İlham Əliyev Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında fərman imzalayıb.**

İşğaldan qurtulan Qarabağda quruculuq işlərinin artıq başlandığına start verən bu fərmana əsasən, Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində, Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar yaradılacaq. Müvəqqəti komendantlıqlara fəaliyyət göstərdikləri ərazilərdə mühüm əhəmiyyətli obyektlərin, o cümlədən nəqliyyat və telekommunikasiya infrastrukturu obyektlərinin, enerji və su təchizatı sistemlərinin, su anbarlarının, insanlar və ətraf mühit üçün yüksək təhlükə mənbəyi olan xüsusi obyektlərin mühafizəsi, ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunması, aşkar edilən hərbi texnikanın, silahın, döyüş sursatının, zəhərləyici və partlayıcı maddələrin toplanması, inventarlaşdırılması və mühafizəsi, Kənd təsərrüfatı texnikası istisna olmaqla, digər mülki təyinatlı texnikanın, nəqliyyat vasitələrinin inventarlaşdırılması, saxlanılması və mühafizəsi, aşkar edilmiş sənədlərin uçotunun aparılması və sonrakı təhlil üçün mühafizəsi vəzifələrini yerinə yetirilməsini təşkil etmək tapşırılıb.



**Millət vəkili Tahir Mirkişili** fərmanla bağlı fikirlərini bölüşərək bildirib ki, "Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərimizdə müvəqqəti xüsusi idarəetmənin təşkili ilə bağlı fərmanı xüsusi əhəmiyyətə malikdir. Bu sənəd erməni işğalçılarının ekoloji terrora məruz qoyduğu, dağıtdığı, tarixi-mədəni abidələrimizi məhv etdiyi Dağlıq Qarabağ və ətraf ərazilərin inkişafına təkan verəcək".

Onun sözlərinə görə, işğaldan azad olunmuş ərazilərimizdə bərpa işlərinin aparılması ilə bağlı vahid uçotun yaradılması çox vacibdir: "Bu ərazilərdə erməni işğalçıları 30 il ərzində hər şeyi məhv edib.

Ancaq bununla yanaşı orada nə qalıbsa, işğalçıların qoyub getdiyi avadanlıqlar, ərazilərin təmizlənməsi, infrastrukturun öyrənilməsi, orada olan kommunikasiyaların bərpası ilə bağlı ilkin qiymətləndirmə aparılacaq. Bunun üçün və təhlükəsizliyin təmin olunması baxımından komendantlıqların yaradılması kifayət qədər effektiv addımdır".

Komitə sədri qeyd edib ki, indiki mərhələdə belə bir qiymətləndirmənin aparılması sonrakı mərhələdə daha sürətli bərpa fəaliyyətinin, inkişaf və quruculuq işlərinin aparılması baxımından çox effektiv və sürətli hərəkətlərin həyata keçirilməsinə imkan yaradacaq: "Ümumilikdə, komendantlıqların tətbiq olunması beynəlxalq təcrübədə rast gələnən addımdır. Bu cəhətdən baxsaq, düşünürəm ki, Azərbaycanda indiki halda işğaldan azad olunmuş ərazilərdə müvəqqəti idarəetmə formasının tətbiq olunması bu ərazilərə insanların daha sürətli qayıtmasına və dövlət resurslarının daha effektiv şəkildə planlaşdırılmasına imkan verəcək".

**Millət vəkili Elman Məmmədov** isə bildirib ki, Fərmanda qururverici əsas məsələ ondan ibarətdir ki, düşmənin və onların havadarlarının bütün ciddi cəhdlərinə baxmayaraq, sözümüzü dedik və ərazilərimizi düşmən tapdağından azad etdik.

O qeyd edib ki, indi Azərbaycan bu ərazilərin bərpasına başlayır və ictimai asayiş, qayda-qanunlar yaradılır, bütün sahələr üzrə bölgə inkişaf etdirilir:

"Bu düşmənə bir mesajdır ki, artıq bu torpaqlardan gözünüzü çəkin. Düşmən tərəf azad edilən ərazilərin yenidən işğal edilməsi üçün cəhdlər etsə də, bu, artıq mümkün deyil. Ermənistan və onun havadarlarının yenidən işğala cəhd siyasəti artıq məhv oldu. Bu fərman məsələyə nöqtəni qoydu. İşğal olunan ərazilərimiz artıq



qarış-qarış azad olunaraq bərpa edilir. Biz artıq həmin ərazilərimizdə infrastruktur yaratmağa başlamışıq".

**Millət vəkili bildirib ki,fərmanda hər şey geniş əksini tapıb: "Yəqin ki yaxın vaxtlarda hər qurumun öz üzərinə düşən vəzifələri yerinə yetirmək üçün müəyyən əsasnamələri olacaq. Bu ərazilərdə komendantlıqların yaradılması, müvafiq qurumların strukturunun formalaşdırılması təşkil ediləcək".**

**Nicat Novruzoğlu**

# "Bayrağımız Şuşada dalğalanacaq"

*"Müharibə ilə bağlı ağrılı-acılı çox xatirələr var. Hansı birini deyim, bilmirəm. Xatirələr o qədər çoxdur ki, sözə sığmır. İnanın, indi eşitdiyimiz qələbə xəbərləri yaralarımıza məlhəm olur". "Ədalət" qəzetinin qonağı Qarabağ qazisi Cəlal Məmiyevdir.*

**-İlk olaraq özünüzü təqdim edin...**

-1974-cü ildə Lerikdə anadan olmuşam. Qarabağ qazisiyəm. 1992-ci ildə hərbi xidmətə çağrıldım. Ağdam-Füzuli istiqamətində olan döyüşlərdə iştirak etmişəm. 1994-cü ildə Horadiz istiqamətində düşmən hücumunu dəf edərkən yaralanmışam. İndiyədək yadımdadır, mart ayının 3-ündə düşmənin minaatandan atəş açması nəticəsində 2 nəfərmən və döyüş yoldaşım yaralandıq, 3 nəfər isə şəhid oldu.

**-90-cı illərdən danışaq, yəni o illərlə bağlı xatirələrinizdən...**

-Müharibə ilə bağlı ağrılı-acılı çox xatirələr var. Hansı birini deyim, bilmirəm. Xatirələr o qədər çoxdur ki, sözə sığmır. İnanın, indi eşitdiyimiz qələbə xəbərləri yaralarımıza məlhəm olur. Sizə əsgər getməyim haqqında danışım. 1992-ci ildə Bakıda texnikumu bitirdikdən sonra hərbi xidmətə çağrıldım. Hərbi komissarlığın önündən 22 nəfər gənc əsgərliyə yola salındı. Gənclərin çoxsu Bakıdan idi. Bizə rəhbərlik edən bir leytenantdan soruşduq ki, bizi hara aparırlar? Dedi ki, Lənkəran-Astara zonasına. Avtobus Hacıqabul yolundan döndəndə leytenanta yaxınlaşdım ki, bəs hara gedirik? Söylədi ki, bayaq dedim axı. Mən də cavab verdim ki, bu yol ora aparmır. Dedi, haradan bilirsən? Dedim ki, özüm Lerikdənəm. Güldü, cavab verdi ki, Ağdama gedirik. Dedim, nə gözəl. Mənim üçün çox xoş oldu cəbhə bölgəsinə getmək. Orada 45 gün təlim keçdikdən sonra müxtəlif batalyonlara bölündük. Hərbi xidmətim elədir ki, hər saniyəsində bir xatirə var. Danışdıqca bitməz.

### *«5 qəlpə yarası almışam»*

**-Döyüş yoldaşlarınızla əlaqə saxlayırsınızmı?**

-Əlbəttə. Demək olar ki, əksəriyyəti ilə münasibətim var. Təsəvvür edin ki, 28 ildən sonra Famil adında bir döyüş yoldaşımı axtarıb tapdım. Daha sonra Əlixan adında gizirimiz vardı, 1993-cü ildən təxminən 2008-ci ilə qədər onunla heç bir əlaqəm olmamışdı. Düz 15 il sonra onu axtarıb tapdım. Onlar mənim tək döyüş yoldaşlarım deyillər, qardaş qədər əziz insanlardır. Hər birinin xətri mənim üçün əzizdir. Bu bilirsiniz, nə deməkdir? Birliyimizin bariz nümunəsidir bu. Müharibənin ən gözəl cəhəti odur ki, bir-birini tanımayan insanlar yumruq kimi birləşirlər.



**-Yəqin ki, dostlarınızla da tez-tez həmin illəri xatırlayarsınız?**

-Sözsüz ki, elədir. Bu yaxınlarda Çingiz Qəhrəmanov haqqında olan videonu gördünüz. Çingiz bəy 1994-cü ildə bizim batalyon komandirimiz olub. Çingiz Qəhrəmanovla bağlı bir məqamı danışım. Bir gün dumanlı bir hava idi, mən də Çingizin yanında rabitəçi idim. Çingiz çox irəliləmişdi həmin vaxt. Gəldim, yanına, mənə dedi ki, get, birdən səni vurarlar. Cavab verdim ki, getmirəm, vurulacamsa, qoy vurulum. Yəni Çingiz özündən çox insanları düşünən şəxsdir. Onu da 1994-cü ildən keçən ilədək görməmişdim. Keçən il onu da tapdım. Həmin xatirələri Çingizin yadına salanda ağladı. Torpaqlarımız işğaldan azad olunduqca sevinc göz yaşlarına qərq oluruq. Bilirsiniz, elə bir dönəmdəyik ki, gözlərimiz ağlayır, bir gözümüz sevincdən, biri kədərdən. Kədər də şəhidlərimizə görədir. Amma qəbul etmək lazımdır ki, müharibə şəhidsiz də olmur. Allah şəhidlərimizə rəhmət eləsin.

### *«Müharibədə əsas ürəkdir»*

**-Düz deyirsiniz. Qələbə xəbərləri ürəyimizi sakitləşdirir...**

-Bax mən 5 qəlpə yarası almışam. Onlardan da 1 qəlpə bu günə kimi hələ də oynağımdadır. İnanın ki, qələbə xəbərləri gəldikcə heç ağrılarım olmur, özümü gümrah hiss edirəm. Qələbə biz qazilərin yaralarına dərmandır. Elə duyğular var ki, onlar dillə ifadə edilə bilmir. Ki, bu gün mən də elə vəziyyətdəyəm.

**-Allah Azərbaycan Ordusunu qorusun...**

-Amin, amin, min kərə amin. Bizi yaradan Allahdır. Allaha qurban olum. O bu günləri bizə yaşadır, torpaqlarımız işğaldan azad olunur. Allah Ordumuzu qorusun. Ürəyimizlə, canımızla, son damla qanımıza qədər Ordumuzun yanındayıq. Hazırda oğlum da əsgərlikdədir. Razıyam, mən daxil hər kəs gedək, döyüşək, təki qələbə bizim olsun. İnanıram ki, tezliklə Bayrağımız Şuşada dalğalanacaq. Allah Ali Baş Komandanımızı qorusun. O, Azərbaycanın Milli Qəhrəmanıdır.

Bu gün bizim birliyimizin qarşısında heç kim və heç nə dayana bilməz.

Dünya müharibə tarixinə nəzər salsaq, deyərəm ki, mən inanmıram, bizim əsgərlərimiz kimi cəsur ürəkli əsgər hansısa bir müharibədə olsun. Müharibədə əsas ürəkdir. O olandan sonra əliyalın şəkildə də düşmənə qalib gəlmək olar. Bu gün xalqımızın cəsur ürəyi var. Millətimizin bu cəsarətinin qarşısında baş əymək mümkün deyil. Allah xalqımızı qorusun.

**Rövşən Tahir**

# Ədalət zəfər çalır və qisas qiyamətə qalmır



*Aydın Abbasov, "Azərsu" ASC-də "Departamenti" rəisi, 3-cü dərəcəli Əmək ordenli, "Tərəqqi" medalı*

**Dünya tarixinin çoxu mübarizələr və müharibələrlə bağlıdır. Bəşəriyyət müharibələrə nifrət etsə də həyat onsuz keçinmir. lakin müharibələrin səbəbləri nə qədər müxtəlif olsa da, burada müharibə aparanla müdafiə olunana fərq qoyulur. Təəssüf ki, bəzən müharibə edən, cinayət törədən müxtəlif bəhanələrlə özünə haqq qazandırmaq istəyir.**

Ermənilər tarix boyu çirkin siyasət yeridərək hissə-hissə Azərbaycan torpaqlarını dünyanın gözü qarşısında işğal edərək öz torpaqları kimi bütün dünyaya utanmadan həyasızcasına car çəkmiş və bu torpaqlarda guya nə vaxtsa ermənilərin yaşadığını vurğulamışlar. Bununla kifayətlənməyən ermənilər "Böyük Ermənistan" yaratmaq xülyasına düşmüşlər. Əsrlər boyu böyük dövlətlərə özlərini şirin salıb, Azərbaycan torpaqlarını qana bulayıb ələ keçirən bu mənfur əməl sahibləri Azərbaycanda faciələr törətmişlər.

### Tarixi vərəqlədikcə

***görürük ki, XX əsrdə 3-4 dəfə Azərbaycan xalqının başına olmazın müsibətlər gətirən ermənilər öz çirkin əməllərindən bu gün də əl çəkmirlər. Onların etdiyi terrorlar zamanı xalqımızın başına gələnlər artıq bütün dünyaya məlumdur. Bunlardan biri də 31 Mart soyqırımıdır.***

1905-ci ildə olduğu kimi ermənilərin azərbaycanlılara qarşı soyqırımına 1918-ci ilin martında, məhz Bakıdan başlanıb. Sonra bu iş zəncirvari şəkildə Şamaxıda, Göyçayda, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Qubada və s. yerlərdə xüsusi qəddarlıqla davam etdirilmişdir. Tədqiqatlarda qeyd edilir ki, ermənilərin Azərbaycan xalqına qarşı çevrilmiş soyqırımı siyasəti Çar Rusiyasında mərkəzi hakimiyyətin süqut etdiyi keçmiş imperiyanın dərəbəylik və anarxiya şəraitində yaşadığı 1918-ci ildə daha geniş vüsət almışdı. Bu dövrlərdəki soyqırımı daha mütəşəkkil şəkildə və daha böyük bir qəddarlıq və amansızlıqla həyata keçirilmişdi. 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda ermənilər 50 mindən çox azərbaycanlını qətlə yetirmiş, evlərini talan etmiş on minlərlə adamı öz yurd-yuvalarından didərgin salmışlar.

***Təkcə Bakıda 30 minə yaxın soydaşımız xüsusi amansızlıqla qətlə yetirilmiş, Şamaxı qəzasının 58 kəndi yandırılmış, 8 mindən çox adam- o cümlədən 1653 qadın və 965 uşaq öldürülmüş, Quba qəzasının 122 müsəlman kəndi yerlə -yeksan edilmişdir.***

### Qarabağın dağlıq hissəsində

150 dən çox, Zəngəzur qəzasında 115 Azərbaycan kəndi vəhşicəsinə dağıdılmış, əhaliyə cinsinə və yaşıma fərq qoymadan divan tutulmuşdur.

İrəvan Quberiyasında 211, Qars Vilayətində 92 Azərbaycan kəndi yandırılmış və talan edilmişdir.

İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilir ki, qısa müddət ərzində bu tarixi Azərbaycan şəhərində və onun ətrafında 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 132 min azərbaycanlı məhv edilmişdir.

Ulu Öndər Heydər əliyevin 1998-ci il mart ayının 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmana əsasən 1998-ci ildən başlayaraq hər il 31 Mart Azərbaycanlıların soyqırımı günü Dövlət səviyyəsində qeyd olunur. Həmin gün soyqırım qurbanlarının anma mərasimi keçirilir, dünya ictimaiyyətinin diqqəti xalqımıza qarşı aparılan cinayətkar siyasətə cəlb olunur.

***Beynəlxalq hüquqa görə soyqırım ən ağır beynəlxalq cinayət olmaqla, insanlıq əleyhinə, sülh və bəşəriyyətin təhlükəsizliyinə qarşı yönələn cinayətlər qrupuna aid edilir. Soyqırım cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 9 Dekabr 1948-ci il tarixli 260 (111) saylı qətnaməsi ilə qəbul edilir.***

### Ulu öndərin bir sözü var idi - deyirdi ki,

"Qoy ədalət zəfər çalsın". bu gün Ali baş Komandan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında artıq ədalət zəfər çalır, qisas qiyamətə qalmır. Əsir düşmüş torpaqlarımız işğaldan azad olunur. Ulu öndər deyirdi: "Mən İlham Əliyevə özüm qədər inanıram və əminəm ki, mənim görə bilmədiyim işləri o həyata keçirəcək". Bu arzu bu gün yerinə yetirilir. İlham Əliyevin səbri, qətiyyəti, nəticəsində hər gün cəbhədən xoş sözlər eşidirik.

İlham Heydər oğlu Əliyev öz qətiyyəti, cəsarətli və müdrik qərarları ilə dünyanın gözündə bir daha yüksəldi, özü ilə bərabər xalqımızın şərəfini, ləyaqətini göylərə qaldırdı. Eyni zamanda ermənilərin nə qədər yalançı, xəyanətkar, şərəfsiz olduğunu dünyaya tanıtdı.

Qudurğan düşmənə "Qarabağ Azərbaycandır və nida işarəsi" sözləri ilə cavab verən Prezidentimiz dünyaya səsləndi: "Siz qarışmayın, öz taleyimizi özümüz həll edərik".

***Zaman öz işini gördü və görür. Paşinyan ona-buna yalvarır, kömək istəyir. Bu belə də olmalı idi. Xalq İlham Əliyevi dəstəkləyir, ona inanır, güvənir və həmişə onunla birlikdədir. Prezidentə yazılan məktublardan bir nümunə: Cənab Ali Baş Komandan! Çoxdan bəri gözlədiyimiz "İrəli" əmrini verdiyiniz üçün Sizə minnətdarıq. Çünki bu əmrə əsasən düşmənə layiqli cavab verilir, torpaqlarımız azad olunur. Bu savaş naminə hər birimiz müsəlləh əsgər kimi əmrinizə müntəzirik. Biz ordumuzla fəxr edirik və inanırıq ki, Sizin rəhbərliyinizlə torpaqlarımız işğaldan azada ediləcək. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan!***

Bu məktubu Salyan rayon sakini yazıb. Hər gün Ali Baş Komandana onlarla belə məktub gəlir. Paşinyan isə xalqın arasına çıxa bilmir. çünki xalq ona nifrət edir.

Mən özüm Tərtərdə doğulmuşam. Son vaxtlar dəfələrlə Tərtərdə Goranboyda Ağcabədidə olmuşam. Dağılan evlər görəndə gözlərim yaşarır. İnsanlarda olan inamı, ruh yüksəkliyini görəndə xalqımla fəxr edirəm. 7 yaşımda Cəbrayıldan qaçqın düşən indi isə öz evinə mayor kimi gələn adamın sevinc göz yaşlarına necə şərik olmaya bilərsən.

***Bir ana 30 ildir yanında gəzdirdiyi boğçanı açır, titrəyə-titrəyə barmaqları ilə oradan bir açar çıxarıb oğlanlarına uzadıb-Qarabağdakı evimizin açarıdır. Gedin qapınızı açın-deyir. Bu səhnəni görəndə kim özünü ağlamaqdan saxlaya bilər ki.***

30 il əvvəl Qarabağa bələkdə gəlmiş körpə oğlanlar bu gün Qarabağa əldə silah, müzəffər ordumuzun xilaskar əsgərləri kimi qayıdır-buna necə necə sevinməyə bilərsən.

### Kişilər ağlamaz deyirlər

70 yaşlı köçkün Cəbrayıl sakini Adil müəllim ömründə iki dəfə ağlayıb-27 il əvvəl Cəbrayıldakı evini qoyub gələndə və 27 il sonra Cəbrayılın azad edilməsi xəbərini eşidəndə, Biri kədərdən doğan göz yaşları idi o biri sevincdən doğan göz yaşlarıdır. Qoy həmişə xalqımızın, millətimizin gözlərində sevinc göz yaşları olsun. Şükürlər olsun ki, ədalət zəfər çalır, qisas qiyamətə qalmır. Mənim bir arzum var. Azərbaycanın fəxri, Ulu öndərimin yadigarı Ali baş komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Qarabağ işğaldan azad edildikdən sonra erməni xislətinə birdəfəlik son verməmək üçün Xankəndinə Ulu öndərin şərəfinə Heydərabad adı verməklə Azərbaycanın paytaxtını ora köçürməkdir. İnşallah haqq bizimlədir. Qarabağ Azərbaycandır!!!

Fidan Abdurəhmanova

# ŞƏHİD UŞAQLAR



**Mən Bərdədənəm... Mən Gəncədən... Mən Xocalıdanam...**

**Biz müharibədə öz böyüklüyümüzü itirmiş uşaqlarıq. Heç vaxt böyüməyən, əbədi uşaq qalan şəhidlərik.**

**Siz bu dağılmış evləri tikəcəksiniz, yolları yenidən döşəyəcəksiz, yanmış avtomobilləri yeniləri ilə əvəz edəcəksiniz. Amma biz bir daha qayıtmayacağıq.**

**Bizi heç kim heç vaxt səliqəli geyindirib məktəbə, sinif otaqlarında dərs keçməyə yola salmayacaq.**

**Biz imtahan həyəcanı, ali məktəb sevincini yaşamayacağıq. Ana laylası və ata sığalına həsrət qalan uşaqlarıq. Özümüz də heç bir zaman ata ana ola bilməyəcəyik. Biz sevgidən, qayğıdan məhrum, əbədi uşaq qalan müharibəyə şahid - Şəhid uşaqlarıq!**

**Mən Bərdədənəm, adım Aysudur. İkinci sinifdə oxuyuram. Həyətdə qonşu uşaqlarla oynayarkən günorta azanının səsini eşitdim. Ardınca partlayış səsi... ermənilər bizim məhəlləyə raket atmışdı.**

**Hər yeri qara tüstü bürüdü. Sonra... Sonrasını duymadım... ayaqlarım yerdən üzüldü.İnsanlar qaçırdı. Harasa tələsirdi. Qaçanların içində atam da vardı. Atam bir uşağın parçalanmış, dağılmış hissələrini toplayırdı. Atam elə hey məni çağırırdı.**

**Mən ordan uzaqlaşırdım. Sonrasını nə eşitdim,nə də gördüm... Amma atamın səsi hələ də qulağımdadır. Aysuuuu....**

**Mən Gəncədənəm, bu il tələbə adını qazanmışdım. Universitetə getmək qismət olmadı mənə. Bu səslər ermənilərin Gəncədə törətdiyi qətliyamda körpə vücudları paramparça olmuş uşaqların fəryadıdır. Analarını istəyir... bir yaşları yenicə olmuş uşaqlardır... onlar mənim qonşularımın uşaqlarıdır. Biz raket atəşinə məruz qamış binaların ən aşağı mərtəbəsinin sakinləriyik. Bizi dağıntılar altından sağ çıxara bilmədilər.**

**Mən Xocalıdanam, birinci sinifdə oxuyuram. Hərfləri keçib qurtarmışdıq. Əlifba bayramına hazırlaşırdım. Mənimatamı da, anamı da gözümün önündə qətlə yetiriblər.**

**Atamı həyətimizdəki inəyin kəndiri ilə həmişə kölgəsində oturduğumuz ağaca sarımışdılar. Anamın isə kürəyinə qaynar qazan bağlamışdılar. Əvvəlcə həyətdəki ocaqda o qazanın içində su qaynatdılar. O ocaqda anam həmişə yuxa bişirərdi. Ətri aləmə yayılardı.**

**Uşaqlar qapımızdan əl çəkməzdilər. Həmin qaynar su ilə dolu qazanı anamın kürəyinə bağladılar.**

**Odunları isə atamın ayagının üstünə yığdılar. Anam dəli kimi həyəti dövr etdikcə atam qışqırırdı.**

**Mən hər dəfə anama yaxınlaşanda anamın kürəyindən üstümə qarnar su tökülürdü. Anamı da, məni də yandırırdı. Məni həmin qazanın içinə atdılar. Atam ağacla birlikdə alovlanaraq yandı. Anam da... mənim yanmış dərimi soymaq üçün bıçaqla üstümə gəldi ermənilər. Sonrasını xatırlamıram...**

**Bizi sən xatırla Azərbaycan əsgəri, bizim yarımçıq qalmış arzularımız, ömürlərimiz sənə əmanət olsun. Artıq heç bir uşağın həyatının işığı sönməsin, dünyası qaralmasın. Dünyada heç bir xalqın Azərbaycan ailələrinin, ocaqlarının dağıtmasına cürəti yetməsin. Qanımız tökülən bütün torpaqlarda uşaqlar rahat, hüzurla yaşasın.**

**Bütün dünya erməni qətliyamına susaraq, göz yumsa da, sən öz qüdrətinlə, bizim qisasımızı al! Sən susma - Azərbaycan Əsgəri!**

# "Dağlıq Qarabağa muxtariyyət verilməməlidir"

*"Ermənistan rəsmilərinin məsələyə münasibəti həqiqət mənzərəsinin təhrifidir və həqiqət mənzərəsinin təhrif olunduğu nəyisə müzakirə etməyə dəyməz. Ermənistan bu dəqiqə batmaqda olan və saman çöpündən yapışmış bir adamı xatırladır. Ona görə də, bütün vasitələrdən istifadə edir ki, Azərbaycan tərəfinin əks-həmlə əməliyyatlarının qarşısını alsın". "Ədalət" qəzetinin qonağı media eksperti, politoloq Anar Həsənovdur.*

**-Rusiya telekanalında etdiyiniz bir çıxış var ki, cəmiyyətdə səs-küyə səbəb olub: "Qarabağ Azərbaycanındır!" Söhbətə elə həmin çıxışınızdan başlayaq...**

-İlk olaraq onu deyim ki, artıq 20 ildir ki, Rusiyada yaşayıram. Moskva Dövlət Universitetinin məzunuyam, filologiya elmləri namizədiyəm, Rusiya ali məktəblərindən birində jurnalistika fənnlərindən dərs deyirəm, böyük pedaqoqam. Çıxışıma gəldikdə isə söyləyim ki, Qarabağ mənim üçün həm milli məsələdir, həm də elm predmetidir. Elm predmetidir, ona görə ki, mənim diplom işim "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin post-müharibə dövrünün KİV-də işıqlandırılması" olub. Hətta bu məqsədlə Moskvada təhsil aldığım müddətdə bir il erməni dilini öyrənmişəm. Qarabağ məsələsinə mənim münasibətim elmi yanaşmadır. Qarabağ probleminin köklərini, səbəblərini elm predmeti olaraq öyrənmişəm. Həmin çıxışımda olan tezislər elmlə bağlı olan tezislərdir. Sözsüz ki, emosional bir görüntü var, amma o fikirlərin hər biri elmə dayanır. Rusiya cəmiyyətində tanınan bir adam olduğum üçün 1-ci kanaldan mənə zəng edib qonaq kimi dəvət etdilər. Efirdə heç bir məhdudiyyət olmadığı üçün mən də həmin fikirləri səsləndirdim: "Qarabağ Azərbaycanındır! Füzuli, Ağdam, Cəbrayıl, Şuşa, Xankəndi Ermənistanın ərazisi deyil, Azərbaycanındır".

***«Azərbaycan Dağlıq Qarabağ adında qondarma rejimi tanımır»***

**-Tamamilə doğru deyirsiniz, Qarabağ Azərbaycanındır! Bax elə Qarabağ problemi ilə bağlı sizin fikirlərinizi bilmək mənə maraqlı olardı. O fikirlərinizi ki, onlar elmi əsaslandırılmış faktlardır...**

-Ermənistan-Azərabaycan münaqişəsi bir dövlətin başqa bir dövlətə ərazi iddiaları səbəbindən baş vermiş münaqişədir. Bu münaqişənin kökündə bir məsələ dayanır, Ermənistanın Azərbaycan Respublikasına qarşı əsassız ərazi iddiaları. "Dağlıq Qarabağ xalqı" anlayışı bir görüntüdür ki, Ermənistan ideoloqları tərəfindən düşünülüb. Bu anlayışın ortalığa atılmasının da başlıca səbəbi ermənilərin ərazi iddialarını gizlətməsidir. Müharibənin bir səbəbi var, Azərbaycan torpaqları hesabına Ermənistan öz ərazilərini genişləndirmək istəyirdi və biz buna imkan vermədik. Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı onu söyləyə bilərəm ki, bütün torpaqlar işğaldan azad olunmalı və Dağlıq Qarabağa heç bir muxtariyyət verilməməlidir. Ermənilər Azərbaycanda yaşayan digər xalqlar kimi yalnız hüquqlarla



təmin olunmalıdır. Hesab edirəm ki, münaqişə həll edildikdən sonra Qarabağa yeni yanaşmalar tətbiq edilməlidir: "Azərbaycan Respublikasının Qarabağ regionu". Yəni "Dağlıq Qarabağ Muxtar Vilayəti" anlayışı silinməlidir.

Bu gün görünən mənzərə odur ki, Ermənistan-Azərbaycan münaqişəsinin bir həlli var, Ermənistan silahlı qüvvələrinin tərk silah edilməsi və Ermənistanın kapitulyasi aktını imzalaması. Paşinyanın son çıxışında bildirdi ki, erməni əsgərləri Azərbaycan ərazisində müharibə aparır. Azərbaycan Dağlıq Qarabağ adında qondarma rejimi tanımır, tanımayacaq, buna görə də münaqişənin bir həlli var, ermənilər tərk-silah olunmalıdır, Azərbaycanın ərazilərinə hansısa bir iddialarının olmadığına dair sənədə imza atılmalıdır.

***«Ermənistan həmişə 2 kartdan istifadə edib»***

**-Yəqin ki, Ermənistanın xarici işlər nazirinin CNN-dəki rəzil müsahibəsinə baxmısınız...**

-İstər Ermənistan xarici işlər nazirinin, istərsə də baş nazirinin çıxışlarında tez-tez ziddiyyətli məqamlarla rastlaşırıq. Hələ 2019-cu ildə Ermənistanın baş naziri Nikol Paşinyan demişdi ki, "Qarabağ Ermənistandır və nöqtə".

Amma bu çıxışdan 1 həftə sonra Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan isə söyləmişdi ki, masa arxasında qondarma Dağlıq Qarabağ rejimi iştirak etməlidir. Hər iki bəyanat bir-birini təkzib etmişdi və belə bir fikir formalaşmışdı ki, onlar mövqelərini heç razılaşdırmırlar. Ermənistan həmişə 2 kartdan istifadə edib: "Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi və Dağlıq Qarabağa azadlıq". Bu 2 kartdan zaman-zaman istifadə edib. Hələ 1988-89-cu illərdə Dağlıq Qarabağa azadlıq yox, onun Ermənistana birləşdirilməsi gündəmdə idi. Hətta bununla bağlı keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindəki deputatlar məsələni səsə qoymuşdu. Baxmayaraq bu səsvermə qeyri-leqal olub SSRİ qanunvericiliyinə zidd idi, amma Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edilmişdi. Hətta 1989-cu ildə Sovet Ermənistanı parlamenti həmin qərara uyğun olaraq Dağlıq Qarabağın Ermənistana birləşməsini əks etdirən qərar da qəbul etmişdi. Dünya ictimaiyyətinin təpkisi və Azərbaycan tərəfinin etirazından (Azərbaycan dünyaya həqiqətləri çatdırmışdı ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları var) sonra Ermənistan tərəfi demişdir ki, Dağlıq Qarabağ müstəqil olmalıdır. Ermənistan həmişə bu manevrlərdən istifadə edib. Amma artıq həmin dövr keçmişdə qalmışdır və Azərbaycan əsgəri öz sözünü deyir.

Ermənistan rəsmilərinin məsələyə münasibəti həqiqət mənzərəsinin təhrifidir və həqiqət mənzərəsinin təhrif olunduğu nəyisə müzakirə etməyə dəyməz. Ermənistan bu dəqiqə batmaqda olan və saman çöpündən yapışmış bir adamı xatırladır. Ona görə də, bütün vasitələrdən istifadə edir ki, Azərbaycan tərəfinin əks-həmlə əməliyyatlarının qarşısını alsın.

**-Ermənilər bu gün Azərbaycanın dinc əhalisini də atəşə tutur. Bir az da bundan danışaq...**

-Bilirsiniz ki, Rusiya kanallarında da ermənilərin Gəncədə törətdiyi terror aktlarını göstərildi.

Eləcə də digər ərazilərimizdə dinc əhaliyə qarşı edilənlər göstərilir. Xankəndindən Azərbaycanın hər hansısa bir rayonu raket atəşinə tutulur. Bax bu hərbi cinayətdir. İstər Ermənistanda, istərsə də Qarabağda olan Ermənistanın silahlı qüvvələrinin dinc əhalini atəşə tutması cinayətdir. Elə Gəncə terroru üzərində deyim. Baxın, Gəncə hərbi münaqişənin aparıldığı ərazilərdən uzaqdadır. Bu baxımdan ora raket atılması təcavüz cinayətidir.

**Rövşən Tahir**

# "HARAMINIZ OLSUN!!!"

**"McDonald's"ın Azərbaycan nümayəndəliyinin Ordumuza etdiyi hörmətsizlikdən, yəqin ki, xəbəriniz var. Biləməyənlər üçün bir də xatırladım. Belə ki, "McDonald's"ın Azərbaycan nümayəndəliyi Azərbaycan Ordusunun düşmənə qarşı əks hücumlara başlamasından sonra sosial media hesablarında Ordumuza dəstək məqsədi ilə yaydığı postları və paylaşımları silib. Bu addım insanlar tərəfindən pis qarşılanıb və onlar "McDonald's"ı baykot ediblər. Biz bu restorandan həqiqətən imtina etmişikmi? Oyandığımda beynimdə yalnız bu sual dolanırdı.**

Odur ki, bu gün səhər (red. 29.10.2020) yuxudan duranda artıq gedəcəyim ünvanı müəyyənləşdirmişdim-Mərkəzi park adlanan ərazidə yerləşən "McDonald's" restoranı. İşdən çıxar-çıxmaz birbaşa Mərkəzi parka yola düşdüm. "McDonald's" restoranının önünə çatanda məni fotoda gördüyünüz bu gənc qarşılayaraq dedi: "Olar, buradan yemək yeməyəsiniz? Biz buranı baykot edirik".

Kimliyimi bildirməmək üçün (Restoranın mühafizəçiləri jurnalist olduğumu bilərdilər və çəkiliş üçün məni birdən içəri buraxmazdılar) "xeyr" cavabı verdim. Sonra




haqqımda mənfi düşünməsin deyə (Bu, təbii ki, mənim qeyrətimdən irəli gəlirdi) geri dönüb ona yaxınlaşıb qulağına pıçıldadım:

"Jurnalistəm". Sözüm qardaşın üzündə təbəssüm yaratdı. İçəri keçdim, nəsə sifariş edib masada oturmalıydım ki, mənzərəni müşahidə edim. Tam səmimi orada olduğum 5 dəqiqə mənə 5 il kimi gəldi. Kin, küdurət, qəzəb hər biri canımda idi. İlk dəfəydi ki, mən nə sifariş edəcəyimi bilmirdim. Filmlərdə olduğu kimi yanımdakının çay sifariş verdiyini görüb "Mənə də çay verə bilərsinizmi?" deyə müraciət etdim. İnanın ki, 24 illik həyatımda mən birinci dəfə idi ki, çayı güclə içirdim. Amma məcbur idim. İçərini izləmək, mövcud vəziyyəti təhlil etmək baxımından məcbur idim. Bunu da əlavə edim, o qədər sıxılırdım ki, çayın soyumasını gözləmədən üzərinə soyuq su aldırdım. Yetər ki, mən orada foto çəkilişimi edim və bir-iki qurtum çay içib "guya çay içməyə gəmişəm" mənzərəsini yarada bi-



lim. Fotoları çəkdikdən sonra missiyamın başa çatdığını düşünüb çölə çıxdım. Qapıda dayanan həmin o gəncə, qardaşa: "Mən də sizinləyəm, sizin kimi oğulların sayəsində bu Vətənə nəsə olmaz!",-dedim və ayrıldım.

Yol gələ-gələ bir şeyi düşünürdüm: "Çaya xərclədiyim 1 manat 30 qəpiyi". Ona görə yox ki, mən pula heyifsilənirdim, ona görə ki, layiq olmayan bir yerə pul xərcləmişdim. İçimdə bir cümlə dedim: "Haramınız olsun!" Bu cümlə altında həm orada oturan insanları, həm də işçiləri nəzərdə tutdum. İnsanların ona görə haramı olsun ki, bu Vətənin çörəyini yeyirlər, amma bu restorana gəlirlər. İşçilərin isə haramı olsun, ondan ötrü ki, mən Rövşən Tahir ac qalaram, gedib, küçələrdə oturub dilənçilik edərəm, amma Vətənin yanında olmayan bir yerdə əsla çalışmaram. Çalışmaram! Odur ki, bir də deyirəm, HARAMINIZ OLSUN!!!

***P.s.* *Bir az öncə haqqında danışdığım qapıda duraraq insanları baykota çağıran gəncin ad, soyadı Hüseyn Həsənovdur. Yenicə öyrənmişəm ki, o, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında müəllimdir.***

***P.p.s.* *Yekun fikrim ondan ibarətdir ki, insanların çoxu bu məkana daxil olmasa da, bəzi nankorlar girib yemək yeyirlər.***

**Rövşən Tahir**




İbrahim Yusifoğlu
AMEA-nın N. Gəncəvi adına
Ədəbiyyat institutunun əməkdaşı


## MƏNİM DƏRDİM DƏRDLƏŞMƏLİ DƏRD DEYİL

Ulu Tanrım ad veribdi bu yurda,
Ad qarışıq od veribdi bu yurda,
Minbir sərvət, dad veribdi bu yurda,
Təkcə qonşu millət kimi mərd deyil,
Mənim dərdim dərdləşməli dərd deyil.

Ermənınin öz tarixi, yaşı yox,
Dədə-baba torpağı yox, daşı yox,
Hiyləgəri, qeyrətsizi, çaşı çox,
Abır-həya onlar üçün şərt deyil,
Mənim dərdim dərdləşməli dərd deyil.

Bu yerlərə ermənilər gələli,
Parçalandı bu torpağın zər-ləli.
İrəvanlı, zəngəzurlu, göyçəli-
Neçə elim əldən getdi, bəs deyil?
Mənim dərdim dərdləşməli dərd deyil.

Gücü yoxdur, arxasına güvənir,
Sözü yoxdur, dargasına güvənir,
ATƏT adlı "qarğasına" güvənir,
BMT-nin qərarları sərt deyil,
Mənim dərdim dərdləşməli dərd deyil.

Həmsədrlər bölgələrə iz tutur,
Tərəflərə barış üçün üz tutur,
Günahkarı günahsızdan düz tutur,
Dedikləri bizə məqbul vəd deyil,
Mənim dərdim dərdləşməli dərd deyil.

Xəyanətdən doymayırlar bu "yan"lar,
Ara vurur bu "yan"lara uyanlar,
Dinə bilmir həqiqəti duyanlar,
Təklif vermək barış üçün hədd deyil,
Mənim dərdim dərdləşməli dərd deyil.

Sahib çıxır Qarabağ tək elimə,
Əl uzadır "Xarı bülbül" gülümə,
Biz hazırıq Vətən üçün ölümə,
Bu oyundu-ancaq şahmat, nərd deyil,
Mənim dərdim dərdləşməli dərd deyil.

Günəş doğub, hər yan nura boyanıb,
Daha düşmən boş xəyaldan oyanıb,
Qarşısında gülcü ordu dayanıb,
Dünya bilir, istəyimiz hərb deyil,
Mənim dərdim dərdləşməli dərd deyil!

### Əsgər inamı

Heç bir zaman bağışlamaz
Ana torpaq, yer məni.
Vətənimin qucağında
Yaşayarsa ermənı!

Əziz anam, qəm eyləmə,
Böyüdübsən ər məni.
Daha mənim qabağımda
Dura bilməz erməni!

Namus, qeyrət yolundaca
Tanrım, şəhid ver məni!
Bu torpaqda qan qusacaq
Gavur, dinsiz erməni!

Qələbəyə bil səsləyir
Mətin nəğmə, şeir məni.
Qarabağdan qovulacaq
Yurd-yuvasız erməni.

### Şəhid bacıları

Gör neçə illərdi qansız yağılar,
Dərdlə sinəmizi dağlayıbdılar.
Dünyada ən qəmli ağılar ki, var,
Şəhid bacıları ağlayıbdılar.

Qardaşla bir yerdə ötən illəri,
Ömrə ən müqəddəs il sayıbdılar.
Acılı-şirinli xatirələri,
Şəhid bacıları yaşayıbdılar.

Ən zərif zinəti, gözəl geyimi,
Qardaş toylarına saxlayıbdılar.
Taleyin qarası hopmuş örpəyi,
Şəhid bacıları bağlayıbdılar.

Gözləri quruyub susuz çeşmə tək,
O qədər ki, dərddən çağlayıbdılar.
Dünyada ən qəmli, kədərli, kövrək,
Şəhid bacıları ağlayıbdılar.

---

# "Müharibə və uşaqlar" silsiləsi




Qəşəm İsabəyli


### İntiqam

-Ay ata, ermənilər
Raketlərlə vurubdur,
Gecə yatdığı yerdə
Gəncəni.

Qanına bələyibdir
Neçə-neçəananı,
Neçə-neçə uşağı,
Neçə-neçə qocanı,
Gəncini.

-Oğul, intiqamını
Beş-on qat almışıq biz!
-Nə xeyri varmış, ata,
Dirilib duracaqmı
Ölüb-itənlərimiz?!

### Niyə bəs

-Erməni də müsəlmandır,
Anlat mənə, baba, bir?!
-Nə pis söz danışırsan,
Ağlın azıbdır nədir?!

-Tutaq ki, ağlım azıb,
Sözlərim də pisdi lap.
Mənə başa sal barı,
Niyə bəs Qarabağa
Silah daşıyan Rusun
Qabağını kəsməyir
İran müsəlmanları?!

### Məlik Məmməd öldürdüyü Əjdəha dirilibmiş

Məktəbə aparardı
Hər səhər atam məni,
Öpərdi üz-gözümdən,
Dişləyərdi çənəmi:
-Nə şirin baladır bu,
Allah qorusunbunu!
Qucaqlayıb boynunu,
Mən də öpərdim onu!

Düz bir aydı görmürəm
Atamın üzünü mən:
-Ana, atam hardadı,
De, bilim düzünü mən?!
Yamanca darıxıram,
Səhərlər oyananda
Yatağına baxıram.

-Ay bala, atan gedib
Döyüşür ermənıylə...
-Neyləyib bu erməni?
-Bizə gəlibdir hiylə,-
Tutub torpağımızı,
Suyumuzu kəsibdir,
Bir gün, bir ay deyil ki,
Bala, düz otuz ildir!

-Demək, Məlik Məmmədin
Öldürdüyü Əjdəha
Dirilib gəlib cana?!
Atam gedib onunla
Döyüşə girib, ana?!

Eybi yox, qoy darıxım,
Atam gec dönsün geri, -
Öldürsün Əjdəhanı,
Məhv etsin pislikləri!

### Sülhü neyləyirik biz...

Qəşəm-Şəm açdı qapımı,
Pərt durdu qabağımda:
-Necə sakit oturmusan,
Necə rahatsan, baba?!

-Nə olubdur, ay oğul?!
-Sənə pis xəbərim var -
Hələ şəhidlərimizin
Alınmayıbdır qanı,
Televizor deyir ki,
Müharibə dayanır.

Axı Prezidentimiz
Şəhid analarına
Söz vermişdi o günü:
”Sonacan gedəcəyik,
Düşməni Qarabağdan
Vurub rədd edəcəyik!”

İndi bəs bu nə işdi,
Torpaqlarımız yanır,
Müharibə dayanır?!

-Sən deyən deyil, bala,
Düşmənlə aramızda
Sülh elan olunubdur...

-Nə danışırsan, baba,
Sülhü neyləyirik biz?!
Məgər azad olubdur
İşğaldan Vətənimiz?!

-Müvəqqəti sülhdü bu.
-Müvəqqəti nə demək?
-Döyüş meydanlarından
Meyitləri götürüb,
Əsirləri dəyişmək...

Sonra düşmən çıxmasa
Xoşluqla Qarabağdan,
Toplar guruldayacaq,
Mərmilər partlayacaq...



Ya düşmən diz çökəcək,
Ya da ki, məhv olacaq!

### Şəhid uşaqlarımız

Erməni əsgərini
Qorxaq doğub anası, -
Odur ki, dovşan kimi
Qorxur əsgərimizdən!

Döyüşlər başlayanda
Tir-tir əsir...
O anda
Silah düşür əlindən:
”Oy ana, qorxuram mən!”

Ya ölür... itir... gedir...
Ya da qaçıb gizlənir,
Daldadan güdür bizi.
Gecə yatdığımız yerdə
Ən güclü silahlarla
Vurub öldürür bizi!

### Şəhid balası

*Şair dostum Tariyel Ümidin təzəcə şəhid olmuş Mayis yeznəsinin övladları Məleykə və Süleymana.*

Bizimlə bir sinifdə
Şəhid qızı oxuyur.
Partasının qarşısında
Atasının şəklidi, -
Azərbaycan bayrağıyla
Qoşa durur.

Elə ki, dərslərindən
”Əla” alır, sevinclə
Dik baxır atasına -
Bir anlıq gülümsünür.
Sonra da ah çəkərək,
Əllərinin dalıyla
Göz yaşlarını silir.

### Vurur Azərbaycanı... Paşinyan

Gecələr xalq yatarkən
Vurur Azərbaycanı
Raketlərlə Paşinyan.
Bir dənə mərmisi də
Çovuyub getməyir yan...

Bu, məktəb binasıdır,
Vurur Paşinyan onu -
Darmadağın dağıdır,
Bu, uşaq baxçasıdır,
Vurur Paşinyan onu -
Yerlə bərabər edir.
Bu da ki, xəstəxana...
”Qoymarıq bir türk burdan
Qurtulub gəlsin cana!”

Sonra da güllələyir
Qəbirləri bu yağı, -
Əsgərləri qırılıb,
Əllərindən çıxdıqca
Azərbaycan torpağı!

Gecələr xalq yatarkən
Vurur Azərbaycanı
Raketlərlə Paşinyan.
Bir dənə mərmisi də
Çovuyub getməyir yan...

### Dron

-Baba, xəbər satıram,
Sevinc doludur içi.
Dronunu vurubdur
İran erməni-bicin!

-Səhv etmə, oğul bala,
Erməniyə heç zaman
Ziyan yetirməz İran!

-Saytlar dolub daşır
Bu sevinclə birə on!...
-Bala, avamlıq etmə,
Yəqin İran səhv salıb,
Elə zənn eləyib ki,
Bizim drondur dron!

### Şir kimi vuruşuram

O qədər qələmim var,
İtirmişəm sayını,
Hücum çəkib tuturam
Erməni cəbhəsini -
Stolu, çarpayını.

Zeynəb də tez-tez deyir:
-Bu qədər dəftər, qələm,
Pozan, panel,karandaş, -
Nəyinə lazım, qaqaş?!

-Niyə nəyimə lazım,
Erməni əsgərinə
İntiqamla coşuram.
Görmürsən bəs onlarla
Şir kimi vuruşuram?!

# Ən böyük qələbəyə doğru

### *Əbülfət Mədətoğlunun söz silahı*

**Hər dəfə səninlə görüşəndə, “Ədalət” qəzetində dərc olunmuş yazılardan, qələmə aldığın esselərdən mütləq söhbət açırıq. Çox yaxşı ki, səni qəlbən duyanlardan biri də mənəm. Sənin gözlərinin dərinliklərində gizlənmiş Vətən həsrətini, dərdini, möhnətini, yurd sevgisini duyuram. Nə yaxşı ki, Allah sənə qeyri-adi istedad, söz demək səlahiyyəti verib. Sən də onları məharətlə şair süzgəcindən çıxarıb xırdalayır, sözdən abidə yaratmağı bacarırsan.**

Əlalxüsus dünyada tanınmış siyasətçi, mahir diplomat, əvəzolunmaz Ali baş Komandan İlham Əliyevin əmri ilə otuz ildən bəri işğal altında inləyən Qarabağ torpaqlarını - şəhər və rayonları, kəndləri, o yerlərin suyu, havası, gülü, çiçəyi azad olunduqca qələmin daha kəsərli bir süngüyə dönür, ürəyini boşaldırsan, düşmən qəsb etdiyi o bərəkətli torpaqları boşaldır. Şah İsmayıl Xətai deyirdi: “Söz var kəsdirər başı, söz var kəsər savaşı”. Bir də deyirlər ki, sözün gücü, qüvvəti bir ordunun gücünə bərabərdir. Dostum Əbülfət, görürsənmi nə qədər böyük bir silah var əlində. Yazyarat, yazdığın qoy heç vaxt olmasın boyat!

### *Düşüncələrimə köçür qürurumuz, sevincimiz*

Belə deməyə əsas var ki, bu cür iradəli, qətiyyətli Ali Baş Komandanın əsgəri də şücaətli, ordusu yenilməz olar. Əsgər dedikdə Qarabağı azad edənlər arasında fərq qoymuram, hamını nəzərdə tuturam. Hədsiz sevinir və qürur hissi keçirirəm ki, MBT-nin ATƏT-in 27 il ərzində etmədiklərini məğrur və qətiyyətli əsgərimiz otuz gün ərzində yerinə yetirdi. Məlum oldu ki, Qarabağın açarı heç də filan şüdələrin cibində deyil, şanlı Azərbaycan əsgərindədir. O əsgər ki, bağlı qapıları irəli gedir. Neçə illər öncə mən də bu ikili mövqeyi görərək Azərbaycan əsgərinə müraciətlə yazmışdım: “Boş şey oldu qərar, fərman, öz çarəni özün axtar”. Və əsgərimiz Prezident İlham Əliyevin əmri ilə bu çarənin nədən ibarət olduğunu bildi və bunu yerinə yetirdi.

***İndi, budur, hər şəhər, kənd, el-oba azad olunduqca sevinc göz yaşlarını saxlamaq olmur. O vaxtlar yuxumuza gələn indi ömrümüzə gəlir. Bu gün adda və yadda qalan bir şey var, o da əməldir.***

Bəli, indi biz Vətəndən, torpaqdan, qələbədən danışırıq. Bu qüruru, sevinci bizə yaşadan Ali Baş Komandan və qətiyyətli, şücaətli, yerə-göyə sığmayan qeyrəti olan Azərbaycan əsgəridir. Vətənin azadlığı yolunda ölsə şəhiddir, qalsa qəhrəmandır Azərbaycan əsgəri!



### *Ən böyük əsərin müəllifi İlham Əliyevdir*

***Televiziya aparıcısı yazıçı Seyran Səxavətə deyəndə ki, yaqin Qarabağ mühaıribəsinə dair əsərlər yazacaqsınız, cavab verdi ki, indi ən böyük əsərin müəllifi Prezident İlham Əliyevdir, biz ona nəzirələr yaza bilərik. İlham Əliyev oktyabr ayında televiziya kanallarının və şirkətlərin aparıcılarının suallarına çox sərrast, məntiqli, dəlillərlə cavab verdi.***

Prezident sözün gücündən çox məharətlə istifadə etdi, qarşıdakı jurnalistləri bir növ tərksilah etdi. O, həm də dünya erməniçiliyini çox ustalıqla məğlub etdi, onilliklərdən üzübəri yığılmış mifi dağıtdı, Azərbaycanın haqq səsini dünyaya yaydı. Təkcə torpaqları deyil, körpələrin təbəssümün, gülüşünü, qocaların müdrikliyini, babalarımızın barmaq izlərini, qəhrəmanlarımızın gücünü, şücaətini, tariximizi, abidələrimizin daş yaddaşını bizlərə qaytardı.

Biz təkcə tariximizə deyil, tarixin bizə əmanət qoyub getdiyi milli-mənəvi dəyərlərə, əmanətə sahib olduq. Ali Baş Komandan bizim çəkdiyimizi gələcək nəslə miras qoymadı.

Müharibə davam etsə də, həyat öz axarında davam edir, iqtisadi, sosial layihələr həyata keçirilir. Məhz işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri həyata keçirilir. Çünki Prezidentimiz qurucudur. Bunu bütün dünya bilir.

### *Azərbaycanla zarafat etməyin*

Cənab Prezident İlham Əliyevin dünyanın nüfuzlu telekanallarına verdiyi müsahibələrdə çox sərrast və düzgün mövqe tutdu, bütün dünyanın gözü qarşısında erməni tərəfinin haqsız olduğunu göstərdi. Qətiyyətli rəhbərliyilə rəşadətli Azərbaycan əzgəri böyük uğurlar qazanmaqdadır.

Ali Baş Komandanın dönməz iradəsi, Azərbaycan Ordusunun şücaəti sayəsində yaxın günlərdə ən böyük qələbəyə nail olacağıq.

**Dünya gördü ki, Azərbaycan 90-cı illərin Azərbaycanı deyil, bizim xalqımızın heysiyyatı ilə oynamaq, suveren hüquqlarını, ərazi bütövlüyünü pozmaq, sərhədlərinə qəsd eləmək olmaz.**

**Azərbaycan xalqının İRADƏSİ Qarabağın taleyini həll etdi!**

***İdris Şükürlü***

# Bill Qeytsin maşın xəstəliyi



**Hər kəsin tanıdığı CEO və xeyriyyəçi Bill Geyts həm də avtomobil həvəskarıdır. Bütün proqramçılar kimi, o da sürəti sevir. Hətta avtomobili sürətlə idarə etməsi onu nəinki böyük məbləğlərdə cərimələr ödəməyə, hətta həbsxanalara qədər aparıb. Çox vaxt da sürət həddini aşdıqda, onu oradan dostu Pol Allen çıxarıb.**

Bu gün onun qarajında 30-dan artıq maşın var. Hələ yeniyetmə olarkən özünə aldığı ”Mustang” avtomobilini muzey eksponatı kimi qoruyur. Bu maşın onun 40 min kvadrat fut ərazisi olan və gölün kənarında yerləşən Vaşinqtondakı evinin əsas bəzəklərindən biridir.

”Porsche-911” maşını ilə Nyu-Meksikonun səhralarında çox şütüyüb. Geytsin ikinci maşını ”Raket” adlandırdığı ”Porsche-930 Turbo” olub. Bu gün onun ”maşın hərəmxanası”nı ”Mercedes”, ”Jaguar Huve”, ”Porsche Carrera Cabriolette-964” və 380 min dollar verdiyi ”Porsche Carrera Cabriolette-959” maşını bəzəyir. Məhz ”Porsche Carrera Cabriolette-959” maşını ABŞ-ın ekoloji standartlarına cavab vermədiyi üçün ölkəyə buraxılmayıb.

Boş vaxt tapan kimi Bill sürət həvəsini ”Ferrari-348” ilə öldürür ki, bu yaxınlarda da bu avtomobili səhranın qumluqlarında xarab edib. Sürət həvəskarı olsa da, o, heç vaxt təhlükəsizlik kəmərindən istifadə etməyib.

**Eminquey**

**Yaqut Bahadurqızı**
**Filologiya üzrə fəlsəfə doktoru**



# Ağ tutu Aşot yeməyəcək!

**Esse**

Rayonumuza pənah gətirən köçkünlər arasında zəngilanlı Mehdi dayı vardı. Küçələri, idarələri dolaşar, xırda-mırda şeylər, nə bilim corab, ülgüc, iynə-sap satardı. Şalvarının ətəyini corabının içinə salar, yayda şəpik, qışda qaloş geyərdi. Qışın şaxtasından, yayın istisindən yanıb mis rəngində olan üzü daima tüklü olardı. Qaş-qabaqlı sifətindən qaramatlıq tökülərdi. Ancaq miskin görkəmli bu kişi heç kəsi qıcıqlandırmazdı, əksinə hamı onunla alver edərdi.

Bir dəfə iş otağıma girib:

- Oxley, xəlbir, milçək dərmanı, urşul - deyə qışqırdı. Zatən, qışqırmasa da, səsi bərk çıxardı.

- Nə xəbər, Mehdi dayı, qulağım batdı. Bəs kitab satmırsan? Stolumun üstündəki kitabları gözdən keçirib təklifsiz oturdu.

- Bir şeir deyimmi?

- De!

Ard -arda 2-3 şeir söylədi. Diqqətlə qulaq asdığımı görüb bir az da həvəsləndi. Sonuncu şeirdə kövrəldi. Belə bitirdi həmin şeir:

***...Oyan a bakkuş satan,***
***Oyan , a saqqız satan,***
***Ağ tutu Aşot yeyir!***

Şeirin havası məni elə tutmuşdu ki, qeyri-ixtiyari bir misra da mən söyləmişdim:

***Oyan, a millət satan!***
***Oyan , a torpaq satan!***
***Oyan , a qeyrət satan!***
***Milləti xiffət yeyir!***

Ondan sonra Mehdi kişi ilə dostlaşdıq. Hərdən kövrələ-kövrələ dərdləşərdi mənimlə. Qaraqabaq , yazıq görkəmli Mehdi kişinin, sən demə, iki ali təhsili varmış... Təzə nə yazsaydı, mənə oxuyardı. Hər dəfə də xırda bir şey alardım ki, könlü xoş olsun. Xasiyyətinə xas olmayan utancaqlıqla: - Qonaq ol, - deyərdi.

Dünyasını dəyişsə də, Mehdi dayını tez-tez xatırlayıram, xüsusən də ”Oyan!” şeirini.

Dədə-baba yurduna qayıtmaq ümidi ilə yaşayan, nisgili ilə ölən Mehdi dayı indi sağ olsaydı yəqin şeirlərinin motivi dəyişərdi. İşğaldan azad olunmuş yurdundan - Zəngilandan, ard-arda zəfər çalan ordumuzdan yazardı... Ruhun şad olsun, Mehdi kişi, daha ağ tutu Aşot yeməyəcək...

### *Respublika Uşaq Kitabxanası vətənpərvərlik mövzusunda şeir müsabiqəsi elan edib*

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası vətənpərvərlik mövzusunda ”Bu gün gərək hər anımız Vətən! - desin!” adlı şeir müsabiqəsi elan edib.**

Müsabiqənin keçirilməsində əsas məqsəd uşaq və yeniyetmələri vətənpərvərlik ruhunda tərbiyə etmək, onlarda doğma vətənə şeir vəsf etmə hisslərini aşılamaq və bu sahədə xüsusi istedadları tapmaqdır.

Müsabiqə 7-17 yaşda olan uşaq və yeniyetmələr arasında keçirilir.

Müsabiqəyə yalnız 1 iştirakçı tərəfindən 1 şeir təqdim edilə bilər. Müəllif özü haqqında məlumatı - ad, soyad, ata adı, oxuduğu təhsil müəssisəsi, bölmə, sinif, telefon nömrəsi, elektron poçt ünvanını qeyd etməlidir. Şeirlərin son qəbul tarixi noyabrın 30-da başa çatır.

Müsabiqə başa çatdıqdan sonra münsiflər heyəti tərəfindən 3 qalib seçiləcək. Digər iştirakçılara isə həvəsləndirici diplom və kitablar veriləcək.

**Ətraflı məlumat əldə etmək istəyənlər http://clb.az/-bu-gn-grk-hr-anmz-vtn-desin-adleir-msabiqsi_d3004.html linkinə müraciət edə bilərlər.**



Dağbəyi
ƏSƏDOV

## GEDİRƏM

*(vida şeirim)*

Nələr bu dünyada qalıb bilirəm
Dünyaya hər şeyi atıb, gedirəm.
Könlüm saz istəyir ovuda bilsəm,
İçimdə Kərəmi çalıb, gedirəm.

Keçmiş xatirələr yadıma düşüb
Şirini acıyla dost eyləmişəm.
Yüzlərlə acını bağrıma basıb
Bir şirin xətrinə çözüb, gedirəm.

Atıram varımı, altun taxtımı
Qızıl Zəngilanı, qızıl baxtımı.
Vətənə getməyə arzu, kamımı
Sizlərə ərməğan qoyub, gedirəm.

Gedirəm, bir daha gəlməyəcəyəm
Heç kəsin xətrinə dəyməyəcəyəm.
Əsayla bir daha gəzməyəcəyəm,
Həblər ürəyimi üzüb, gedirəm.

Arzuma yetişib, kama çatmışam,
Oğluma, qızıma gün ağlamışam.
Vilini, Nizini, Bəhruz qaqamı
Ailəmə səngər qoyub, gedirəm.

Mən daha yaşamaq istəmirəm, Tanrım
Sənə şükür edirəm, ey yaradanım.
Arzuma, kamıma yetişib çatdım
Gedirəm, kabusa dönüb gedirəm.

Xeyirdə, şərlərdə qayıdıb gəlib
Başınız üstündə fırlanacağam.
Sizin dərdinizə şərik olacam,
Ruhum mələklərlə uçub, gedirəm.

Əlvida, əlvida deyirəm, dostlar
Əziz balalarım, yaxın qohumlar
Getməyin vaxtıdı, salamat qalın
Yanan bir çıraqdım, sönüb, gedirəm.

20.06.2019

## XƏRÇƏNG YARASI

Tanrım bu millətdən əsirgəməyib,
Gözəl bir təbiət bəxş eləyibdir.
Amma o, sonradan bir bəla verib
Əcrini bizlərə çəkdirir, qardaş.

Bu bəla bilinmir yaranıb hardan,
Adı ermənidir, soy-kökü nadan.
O nə İsadandır, nə də Musadan,
İnsanlıqdan uzaq xilqətdir, qardaş.

Bu bəla yaradır - xərçəng yarası,
Düşüb Qafqazımın ana bətninə.
Yoxdur nə dərmanı, nə də davası
Olubdur dünyanın bəlası, qardaş.

Nə yaxşı anandı, nə pis qanandı,
Nə bir insan kimi dinc oturandı.
Hürəyən köpəyin bic balasıdı,
Hərdən ağız atıb, tutandı, qardaş.

Tutandı, dartandı, vartandı nəsli,
Mayası saxtadı, bilinmir əsli.
Əzazil, fitnəkar, xain, xəbisdi,
Aldadıb ər tutan zənandı, qardaş.

1996

## HƏSRƏT QALASI

Zəngilan həsrəti sinəmə qonub,
Bu gecə mehmanı biz olaydıq kaş!
Başı ağrıyırsa çalması olub,
Dolanıb başına yataydıq, qardaş.

Qalxıb Ağ oyuğun düzünə çıxsam,
Ürəyin od tutub, yanacaq, qardaş,
Üzümü "Yazı"nın dizinə sürtsəm,
Gözlərim nur alıb görəcək, qardaş.

Tanrıdan, fələkdən imdad diləyib,
Süsənin dikinə çıxaydıq, qardaş.
Allahdan bir anlıq möhlət istəyib,
Doyunca yurduma baxaydıq, qardaş.

Kol basıb yolları, cığırlar itib,
Güllü zəmilərdə tikanlar bitib.
Süsənin dikindən Kəhrizə yenib,
O büllur bulaqdan dadaydıq, qardaş.

İz salaq yoluna Fərəcbəylinin,
İsgəndərbəyliyə yol alıb gedək.
Ürəyim istərdi Xasay müəllimin,
Dilindən bir dəvət alaydıq, qardaş.

Çıxaq Belənovun dikində duraq,
Allaha yalvarıb, göyə üz tutaq
Yatmış tənəkləri tutaq, qaldıraq
Can alsın bərəkət çöllərim, qardaş.

Neçə il qövr edib sinəmdə dağı,
İndi gəl, əyilib öpək torpağı.
Bol olsun məhsulu, bostanı, bağı,
Bac alsın Bərəkət əllərim, qardaş.

Gedək Kürrər yolu, yol tapa bilsək,
Çatıb "Nəcəkan"da bir az dincələk.
Kəndimi qocalmış, pərişan görsək,
Dözə biləcəkmi ürəyim, qardaş!

Yenək "Çaxmaqlı"dan, çaylağa düşək,
Əyilib çaylağın daşından öpək.
Deyirəm kaş burda bir daşa dönək,
Olaq doğma yurdun tən daşı, qardaş.

Çaylaqdan yol alıb qəbiristanlığa,
O yolda, sən Allah, bir ayaq saxla!
Dədəmin, nənəmin, qohum-qardaşın,
Ruhunu oxşayıb, ağlayaq, qardaş.

Çatıb qəbirləri, məzar daşları,
Öpüb bir doyunca ağlayaq, qardaş.
Kabus tək ruhları dolaşanların,
Küskün könüllərin alaydıq, qardaş.

Dur gedək, dur gedək, gedək ahəstə,
Xan çinar qapıda gözləyir bizi.
Evə gedən yolda düşüb üz üstə,
Sürünə- sürünə gedəydik, qardaş.

Qarşımda keçilməz qala görürəm
Onu keçə bilib, gedə bilək kaş.
Həyət-bacamızı viranə görsək,
Vücudum od tutub yanacaq, qardaş.

Qalaqlı Zəmiyə adlayıb gedək,
Köhnə kənd yerini ziyarət edək
Xınalı daşlardan bir kətil seçək,
Oturub yurduma baxaydıq, qardaş.

Gedək kənd dərəyə, orda kökum var,
Əsədin, Səmədin orda ruhu var.
Bizi qarşılayır nənəmiz Bahar,
Alıb qucağında yatırar, qardaş.

O üstün açacaq bir həqiqətin,
İran xəfiyyəsi, o nadan kəsin.
Müdhiş bir gecədə babam Əsədin,
Qətlinə fərmanın deyəcək, qardaş.

Gəl gedək, dincələk Yaqub bağında,
Bu gözəl yurdumun xan oylağında.
Yaqub bulağının lap qırağında,
Bir nahar süfrəsi açaydıq, qardaş.

Xan Əhməd babamın yurduna gedək,
Onun torpağından, daşından öpək.
O soyuq bulağın suyundan içək,
Bəlkə də ömrümüz uzandı, qardaş.

Bu bir xəyal idi, xəyal kimiyəm,
Mən taram, kamanam, royal kimiyəm,
Dəryada sükansız gəmi kimiyəm,
Hara gedəsiyəm, bilmirəm, qardaş.

Mən Dədə Qorqudun soy-kökündənəm,
Qolları bağlanmış Tural kimiyəm.
Yuvası dağılmış qartal kimiyəm,
Hara qayıdacam, bilmirəm, qardaş.

Ürəyim tələsir, ürəyim gedir,
Doğma yurd həsrəti sinəmi didir.
Süsənim, Hərtizim yuxumdan getmir,
Gedən ömrümüzün günüdür, qardaş.

Dağbəyi bilir ki, gedəcək bir gün,
Həsrət qalasını keçəcək bir gün.
Ana vətənində öləcək bir gün,
Bir ovuc torpağa dönəcək, qardaş.

Sovrulub yurdumun dağ-dərəsinə,
Təzədən dünyaya gələcək, qardaş.

1996.

## YURD HƏSRƏTİ

Neçə ildi əsarətdə inlədin,
Eşidən yox, ah-naləni, Zəngilan.
Taleyini sarı simdə kökləndin,
Çalan gərək fəryadını, Zəngilan.

Ucalardan uca durub uzaqdan,
Əlim çatmır ətəyinə o elin
Gözlərimdə qaranlıqdır Zəngilan
Görünməyən bir ümmandır Zəngilan.

Araz boyu qatar gedir, səs salır,
Xəyal məni o yerlərə aparır.
Vallah, məni bu dərd yaman ağrıdır,
Qorxuram ki, yolda qalam, Zəngilan.

Qanad alıb o yerlərə uçaydım,
Süsənimin sinəsinə qonaydım.
Torpağından kündə tutub yayaydım,
Ruzini tək mən yeyəydim, Zəngilan.

Mən arandan, sənsə dağdan boylanan,
Bir həsrətik bəlkə gəldim bir zaman,
Babadağdan, Savalandan boylanan,
Bəlkə səni görə bildim, Zəngilan.

Neçə ildir yazıq qalıb ellərim,
Bağçalarda solub, qalıb güllərim,
Axşam, səhər uzalıdır əllərim,
Tanrı bizi görüşdürə, Zəngilan.

1999

## "Şəhidlər ölməz, Vətən bölünməz!" layihəsi çərçivəsində növbəti əsər təqdim olunub

**Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanasının həyata keçirdiyi "Şəhidlər ölməz, Vətən bölünməz!" layihəsinə Azərbaycan Yazıçılar Birliyinin üzvü Gülzar İbrahimova yeni yazdığı "Bir gecədə dəyişən arzu" hekayəsini təqdim edib.**

İdarədən bildirilib ki, hekayə Ermənistan silahlı qüvvələrinin Gəncə şəhərində törətdiyi terror aktından bəhs edib. Hekayədə Səbinə adlı qızın yaşadığı faciə təsvir olunub.

**Müəllifin ürəkağrısı ilə yazdığı hekayə erməni vəhşiliyini sübut edən hekayədir.**

Füzuli QOBUSTANLI

## AZƏRBAYCAN ORDUSU

**Qafqazda ən güclüsən
Azərbaycan Ordusu.
Öncülsən, birincisən,
Azərbaycan Ordusu.**

**İlk gündən döyüşmüsən
Döyüşlərdə bişmisən.
Hərbdə də yetişmisən
Azərbaycan Ordusu.**

**Çox igid şəhid oldu
Hər uğur ümid oldu.
Cəbhədə vahid oldu
Azərbaycan Ordusu.**

**Dağ səngər, dərə səngər
Sərkərdə - Ali rəhbər.
Bütöv bir millət əsgər -
Azərbaycan Ordusu.**

**Düşmənin zavalısan
Azadlıq qartalısan.
Qov yurddan məlalı sən
Azərbaycan Ordusu.**

**Qorxuya düşüb yağı
Əsir əli, ayağı.
Al, qaytar Qarabağı
Azərbaycan Ordusu!**

**Nəsil-nəsil yaşayar
Bəxş etdiyin iftixar.
Azərbaycan varsa, var
Azərbaycan Ordusu!**

Əziz Musa

## Gözün aydın Cəbrayılım

**Ey arxamız, dayağımız,
Azad olub torpağımız.
Ucalıbdı bayrağımız,
Gözün aydın, Cəbrayılım.**

**Sevinir xan Arazımız,
Səslənir xoş avazımız.
Gəlibdi bahar yazımız,
Gözün aydın, Cəbrayılım.**

**Gülür doğma Çərəkənim,
Qayıdıbdı gül əkənim.
Daha gülür dərd çəkənim,
Gözün aydın, Cəbrayılım.**

**Qartal dönüb Ziyarata,
İgidlər minib Qırata.
Dönmüşük təzə həyata,
Gözün aydın, Cəbrayılım.**

**Qalib gəlmişik düşmənə,
Dönmüşük yurda, vətənə.
Doğma yurddayıq yenə də,
Gözün aydın, Cəbrayılım.**

**İgidlərə min afərin,
Açılıbdı xoş səhərin.
Gülür qoca Xudafərin,
Gözün aydın, Cəbrayılım.**

**Qayıdıb geri durnalar,
Əl eyləyir xan çinarlar.
Sevinir ata-analar,
Gözün aydın, Cəbrayılım.**

**Alqış deyir Gəyən düzü,
Gülür Ağoğlanın üzü.
Ordumuz sevindirdi bizi,
Gözün aydın, Cəbrayılım.**

**Dağtumasdan, Balyanda tək,
Baxdıqca sevinir ürək.
Gəlin-gəlin deyib, gülək,
Gözün aydın, Cəbrayılım.**

**Biz köçkün deyilik daha,
Çox dözdük naləyə, aha.
Şükür, min şükür Allaha,
Gözün aydın, Cəbrayılım.**

# ƏSGƏRİMİZƏ DUA, DÜŞMƏNİMİZƏ PUA



*Nurəddin ƏDİLOĞLU*

**Artıq heç kimə sirr deyil ki, Ermənistan tərəfindən dəfələrlə pozulan humanitar atəşkəs bu işğalçı-terrorçu dövlətə himayədarları tərəfindən silah-sursat ötürmək üçün lazım imiş.**

Dünya ictimaiyyəti yaxşı bilir ki, öz torpaqlarının azadlığı uğrunda Vətən müharibəsi aparan Azərbaycan təkcə Ermənistan kimi quldur və işğalçı dövlətlə döyüşmür. Bu savaşdahavadarları erməni faşizmindənalət kimi istifadə edir, onun bölgədə terrorçuluq, dağıdıcı fəaliyyətini gücləndirməyə səy göstərirlər. Eyni zamanda,Azərbaycan Prezidentinin bu günlərdə təlxək adlandırdığı Nikol Paşinyanı isə himayədarları gerçəkdən özlərinin marionetkasına, gülüş obyektinə çevirirlər. KİV-də yayılan məlumatlara görə,Ermənistana bu və ya digər ölkələrdən uçan təyyarələr humanitar yardım, ərzaq, geyim adı altında Azərbaycanın ərazisinin işğal altında saxlanması və savaş bölgəsindən xeyli uzaqda dinc sakinlərin qətlə yetirilməsi üçün nəzərdə tutulan silah-sursat və hərbi texnikalar daşıyırlar.

### Həmin təyyarələrlə

***"Kornet", "Solnerspek", "Smerç" kompleksləri üçün sursatlar, "D-20" haubitsaları (152 mm çaplı) və "D-30" (122 mm çaplı) silahı gətirilir. Sonuncunun istehsalı iki il əvvəl dayandırılıb, ancaq Rusiyanın silah anbarlarında onlara uyğun kifayət qədər sursatın olduğu bildirilir.Məhz həmin silahlarlaErmənistanın mülki əhaliyə açdığı atəş nəticəsində Azərbaycanda 100-dək dinc sakin dünyasını dəyişib, yüzlərlə insan isə yaralanıb, yüzlərlə yaşayış binaları, onlarla məktəb və uşaq bağçaları tar-mar edilib. Erməni faşist toplumu mənfur xislətini "havadarlarından "yardım" adı ilə aldığı bu ən yeni silahlarla bu gün humanitar atəşkəs dövründə dədavam edtirir.***

Üstəlik Azərbaycana qarşı ikili standartlar mövqeyi tutan bəzi dövlətlərin başçıları adı yuxarıda çəkilən silahları güya o ölkələrdə yaşayan erməni iş adamlarının alıb Ermənistana göndərdiyini bildirirlər. Müşahidələr göstərir ki, hətta Rusiya və Fransadan Ermənistana sərnişin təyyarələrində hərbi təyinatlı yüklər daşınır. Oktyabrın birinci ongünlüyündə təkcə Fransadan 10 saat ərzində hərbi təyinatlı yüklər daşıyan 24 təyyarə Ermənistanda enib. Gürcüstan polisinin Fransadan Ermənistana humanitar yük daşıdığı iddia edilən bir TIR-ı ölkə ərazisində saxladığına dair məlumat yayılıb. Həmin yük avtomobilində dərman qutularının içində Radio Lokasiya Sisteminin hissələri aşkarlanıb. KİV-də dərc olunan informasiyalardan aydın olur ki, himayədarları Ermənistana təkcə silah-sursat deyil, həm də canlı qüvvələr göndərirlər.Yunanıstandan İraqa uçan təyyarənin oradan Ermənistana PKK terrorçuları və muzdluları daşıdığı təkzibedilməz faktlardandır.Ciddi əsgər qıtlığı ilə üzləşən işğalçı Ermənistanın xüsusi xidmət orqanları Rusiya ərazisindəki erməni diaspor təşkilatları ilə muzdlu döyüşçülərin Qarabağa göndərilməsi üçün yeni fəaliyyətə başlayıblar. Moskvada başlayan kampaniyaya əslən Qarabağdan olan Rusiya vətəndaşı Armen Buşants başçılıq edir.

***Azərbaycan Ordusunun sentyabrın 27-də başladığı əks-hücum əməliyyatından sonra Ermənistanın hərbi-siyasi hakimiyyəti torpaqları işğaldan azad etməkdənsə, hər gün həmin dövlətlərdən "yardım" istəyir.***

### Faşist Ermənistanına

bu qədər güzəştlər, açıq-aşkar silah-sursat yardımı haradan, nədən qaynaqlanır?Ən təəccüblüsü budur ki, BMT başda olmaqla ABŞ, Fransa, Britaniya, Rusiya, Çin kimi dünya "beşliyi" və Avropa İttifaqının "xaç atası" olan Almaniya işğalçı Ermənistana Azərbaycan torpaqlarını dərhal tərk etməyi hələ deməsləhət bilmirlər. Niyə? Bu sualın inkar cavabıəlbəttə, çox gülüş doğurardı. "Ermənistanın havadarları, sizə deyirəm: bu saxta dövləti xilas etmək istəyirsinizsə, deyin ki, çıxsın. Bir sözünüzlə çıxa bilər, bir sözünüzlə. Əgər Ermənistana maliyyə, iqtisadi, hərbi, siyasi dəstək verilməsə, onlar ayaq üstə dura bilərmi? Yox."Bu fikirlər Azərbaycanın dövlət başçısı İlham Əliyevin müraciətindəndir. Silahlı Qüvvələrin Ali Baş Komandanı bütün dünyaya səslənir: "Ermənistandan fərqli olaraq biz heç kimdən kömək istəmirik. Mane olmasınlar və Azərbaycan xalqının səbri ilə oynamasınlar. Sabah bu müharibə qurtaracaq, biz istədiyimizə nail olacağıq. Bəs, necə olacaq bizim münasibətlərimiz? Azərbaycan xalqı bu haqsızlığı unudacaqmı? Unutmayacaq. Bunu bir fikirləşsinlər. Azərbaycan indi o dövlət deyil ki, onun maraqlarını kimsə kənara qoya bilər. Xeyr. Gün gələcək, gələcəklər xahişlərlə, təkliflərlə, əməkdaşlıq təklifləri ilə. Bəs, hansı üzlə bizə baxacaqlar? Bu gün bütün imkanları səfərbər ediblər bizə qarşı."

***Bəli, dövlət başçımızın dediyi kimi, inid bizi heç bir qüvvə yolumuzdan döndərə bilməz. Döyüş meydanında əldə edilmiş uğurlar danışıqlar masasında da yeni reallıq yaradıbdır.Bu reallıq igid əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına yaranır.***

Erməni faşistlərini dəhşətə salan, onların kabusuna çevrilən həm də Azərbaycanın uçan pilotsuz aparatlarıdır.PUA-larımız düşmənin canlı qüvvəsinə, hərbi və döyüş texnikasına hər gün xeyli itki verir və bütün cəbhə boyunca tutduqları mövqelərdən geri çəkilməyə məcbur edirlər. Onu da qeyd edək ki, Azərbaycan Ordusu zərbə PUA-larını yalnız işğal altındakı ərazilərimizdə müvəqqəti yerləşən Ermənistan silahlı qüvvələrinin hərbi texnikasına qarşı tətbiq edir.

### Tanınmış rus hərbi ekspertlərin fikrincə,

bu dronlardan istifadə etməyə qərar verən Azərbaycanın hərbi-siyasi rəhbərliyi, sanki bu günləri əvvəlcədən görürdü. Eləcə də bu gün Qarabağda, dağ şəraitində qələbənin çox vacib elementlərindən qardaş Türkiyə istehsalı olan "Bayraktar" pilotsuz uçuş aparatlarının effektli istifadə olunmasıdır. Azərbaycan Ordusunda yeni "əsgər" sayılan bu dronlar erməni zirehli texnikalarının əksəriyyətini məhv edib.

Ermənistanın vəziyyətinə gəldikdə, Mixail Jiroxov adlı hərbi ekspert qeyd edib ki, bu ölkə PUA donanması yaratmaq üçün nə maliyyə, nə də geosiyasi imkanlara malikdir: "Ermənistanın əsas silah tədarükçüsü olan Rusiya Federasiyasında bu cür cihazlar yoxdur və Qərb ölkələri Rusiyanın təsir dairəsində olan bir ölkəyə belə texnikanı satmağa tələsmir. Bu səbəbdən Ermənistanda istehsal olunan dronların istifadəsi son dərəcə məhdud idi və açıq şəkildə uğursuz oldu."

**Bəli, indi Dağlıq Qarabağda yaşından asılı olmayaraq, erməni əsgərlərini bilə-bilə qırğına göndərən və Azərbaycanın mülki əhalisinin qətlə yetirilməsinin iştirakçısı olan Paşinyan və onun faşist əlaltıları dərhal durdurulmalı və hərbi canilər kimi mühakimə olunmalıdırlar.Əfsus ki, müharibədə uduzan ermənilər hərb sənətində növbəti şərəfsizliklərə əl atırlar, öz alçaq məqsədlərinə çatmaq üçünqadın batalyonları yaradır, hətta 13-14 yaşlı uşaqları orduya cəlb edirlər.Nizami Azərbaycan Ordusuna müqavimət göstərən erməni ordusunda qarışıqlıq, fərarilik baş alıb gedir, indi orada hərbçidən çox mülki şəxslər,Suriya, Livan və digər ölkələrdən gətirilən terrorçular döyüşürlər.Biz isə öz növbəmizdə mətin Azərbaycan əsgər və zabitlərinə dualar edir, hərbçilərimizə işğalçı düşmənin hərbi texnikasına sərrast PUA zərbələri endirməyi diləyirik.**

# Dünyanın gözəlliyini gözündən, əzəlliyini özündən keçirən şair

**...Dünyaya göz açdıq. Bizi böyük sevgilərlə ilk oxşayan, bizə həyat verən ilk dünya doğulduğumuz ev (indi doğum evləri dəbə düşüb) oldu. Ana südündən də öncə doğulduğumuz məkanın havası ilə qidalandıq. Sonra isə ilk daddığımız tam anamızın südü oldu. Damarımız da dünyaya gəldiyimiz məkanın havası və anamızın südü ilə bərkidi. İməklədik, yerimək üçün əvvəl-əvvəl torpağa dirsəklənib dikəldik. Büdrədik, yıxıldıq, amma özümüz tədricən ayağa qalxdıq. Doguldugumuz torpaq dizimizə taqət, qolumuza qüvvət, gözlərimizə nur verdi. Yollarına iz qoyub çəhlim aça-aça, çəmənliyinə üz qoyub çiçəklərini qucaquca dolandıq Ana Yurdun başına.**

Burdan pərvazlandıq, burdan arzularımızın dalınca ayrı-ayrı səmtlərə üz tutduq. Dünyaya səpələndik. Amma hara getdiksə, harda olduqsa ilk xatırladığımız doğulduğumuz məkan oldu. Ən yaxşı uğurlarımızı da doğulduğumuz məkanı düşünəndə qazandıq.

Anaya sevgi, Vətənə məhəbbət, Məhhəbbətə sadiqlik hissləri canımıza, qanımıza hopdu. Bu səbəbdən də Ana, Vətən, Məhəbbət bizim üçün əbədi mövzuya çevrildi. Bu üç mövzu əbədi və bəşəri mövzu olaraq bütün yaradıcı şəxslərin həyatının mənasına çevrildi...

***... Elə bil bir soyuq daşa dönmüşəm,***
***Gözdə donub qalan yaşa dönmüşəm.***
***Qanadı qırılmış quşa dönmüşəm,***
***Gəl öz qanadına al, apar məni***

-deyən şair dostum Çingiz Ərəbli də saf bir yolun-əbədi məhəbbət yolunun yolçusudur. İxtisasca həkimdir. "Görüşdük təsadüfən" kitabının ön sözündə yazır: "...mən özümü sevgi aşiqi hesab edirəm. Çünki ixtisasca həkiməm və həkim olub sevməməkgünahdır. Ömrümü insanların sağlamlığı keşiyində durmağa həsr etdiyim kimi, qələmimlə də sizlər üçün yazıb-yaratmağı, poetik duyğularımı bölüşməyi özümə borc bilirəm" .

Azərbaycanın könülaçan təbiəti, saf iqlimi, zəngin təbii sərvətlərinin zənginliyi onun bədii təfəkkürünün cilalanmnasına və yaradıcılığının inkişafına böyük təsir göstərmişdir. Şairin lirik qəhrəmanı da ilhamını məhz bu təmizlikdən, bu saflıqdan almışdır:

***Hara getsən gözümdəsən,***
***Söhbətimdə, sözümdəsən.***
***Atəşim də, közüm də sən,***
***Sevdalıyam, sevirəm mən.***

Böyük məhəbbətlə sevən aşiq sevdiyi qədər də sevilmək istəyir. Elə həyatın mənası, sevginin şirinliyi də bundadır. Lakin bəzən əksinə də olur:

***Gəl pozmayaq andımızı,***
***Qoy yaşadaq sevdamızı***
***Sənsiz, a zalımın qızı,***
***Mənə çox çətindir axı.***

Şairin yaradıcı dünyasına qısa ekskurs edəndəbir bir daha əmin olursan ki, insan gərək ilk növbədə dünyanın gözəlliyini gözündən, əzəlliyini özündən keçirsin. Bundan sonra onun həyata, dünyaya baxışı daha real, daha obyektiv olur. Şairin qələmə aldığı şerlərinin əksəriyyəti oxunaqlıdır, yaddaqalandır. Çünki sevən hər bir kəs bu hissləri yaşamışdır:

***Sevgimin əvvəli, əzəli sənsən,***
***Könlümün ən şirin qəzəli sənsən***
***Mənimçün dünyanın gözəli sənsən***

Söhbət əsnasında həmkarlarımdan biri Çingiz Ərəblinin şerləri haqqında maraqlı fikir söylədi.Dedi ki, onun şerlərində elə




misralar var ki, həmin misraları gənc sevərlər bir-birinə paylaşım edə bilərlər. Həmkarım müəllifin şerlərindən bəzi misraları xatırlatdı:

***Gözümün nurusan, sönmə amandır,***
***Məndən üz çevirib dönmə amandır.***

***İndi xəyalınla danışıram mən,***
***Od tutub içimdə alışıram mən.***

***Gülüstanım solub indi,***
***Qəlbim qanla dolub indi.***

Çingiz Ərəblinin şerlərinin məziyyətlərindən, onların səciyyəvi xüsusiyyətlərindən çox danışmayacağam. Yalnız onu deyə bilərəm ki, onun şerlərində boş dağarcığını dolu çuvala tay qoyanlar, kəsək üstündə oturub daş üçün narahat olanlar, dolunu yeyib boşa təpik atanlar, dünən beş, bu gün şeş istəyənlər, qarğasını qırğı hesab edənlər, işi hacatnan yox, höcətnən görənlər, itə arpa, ata sümük atanlar onun şerlərinin tərs üzüdür. Eləcə də onun yaradıcılığında qaşığınan verib çömçəylə istəyənlərə, qoz silkələyib fındıq yığmaq eşqinə düşənlərə, bir əli ilə iki qarpız tutanlara, pas kimi partlayanlara yer yoxdur.

**Bununla belə Çingiz Ərəblinin bəzi şerləri qüsurlardan da xali deyil. Şair öz üzərində çalışsa, bu qüsurları aradan qaldırmaq mümkündür. İndikidə isə həkim-şair dostum Çingiz Ərəbliyə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.**

**Faiq Şükürbəyli,**
**filologiya üzrə fəlsəfə doktoru**



Ələsgər Talıboğlu
Şair - publisist, AYB-nin üzvü,
Məmməd Araz mükafatı laureatı

## İçimdə bir şeir hayqırır

İçimdə bir şeir hayqırır...
Nə anı, nə zamanı bəlli,
Buraxmır ki... buraxmır...
Yapışıb yaxamdan ikiəlli...
Hər axşam, hər sabah
ağrısı- acısı hey yandırır məni.
Yandıra- yandıra
amansız sancısı qandırır məni.
Qıvıra- qıvıra salır haldan- hala,
öfkəmi, səbrimi yola- yola...

İçimdə bir şeir hayqırır...
Göy üzü bir ovuc ulduz,
hayqırtılar isə hələ də sonsuz.
Hayqıra- hayqıra gəlirəm deyir.
İçimi içimdə qaynadan şeir,
içimi içimdə oynadan şeir...

İçimdə bir şeir hayqırır...
Səsini məndən başqa
Duymur ki kimsə.
Bilməsəm də necə bir
nəsnə olacaq,
gəlirsə qoy gəlsin,
bəlkə söndürərək yanqımı
həməncə yurd sevdalı
qəlbimə təşnə olacaq...

## Musa Uruda

Nə ülvi sevgidir, hər gecə- gündüz,
Qayası səsləyir, daşı çağırır.
Nə dərə susmaqda, nə çiçəkli düz,
O şiş zirvələrin qaşı çağırır.

Çağırır dərd süzən o "Korabulaq",
Həsrəti min qalaq, qəmi min qalaq...
Kövrək harayına verdim də qulaq,
Axan gildir- gildir yaşı çağırır.

Çağırır gəzdiyim o yal, o yamac,
Sevdası köksümdə ox... qulac-qulac...
Ha da qəhərlənib, ha da... könül ac,
Süsənli, laləli döşü çağırır.

Çağırır susmayan çağlar "Kəhriz"i,
Min ləpir saldığım hər cığır, izi...
Çağırır çatdığı füsunlu közü,
Keşkəsi, gümanı, kaşı çağırır.

Çağırır ümidin göynəyən dili,
Çağırır həsrətin çuğlayan seli...
Çağırır zəfərin əsəcək yeli,
Nə olsun, bir az da "naşı" çağırır.

Çağırır o "Demlər", o "Ardıclıdağ",
Qəlbimi fəth edən hər təpə, hər dağ.
Talıboğlu, eşqin sən gücünə bax,
O "Söyüdbulaq"ın başı çağırır.

## Ey Vətən

Ey Vətən, köksün dərd axarı,
Ah- naləmə dilim yetməyir.
Aşır məni, məndən yuxarı,
İstəsəm də əlim yetməyir.

Hər ağrın- acın dünya boyda,
Məlhəm edəmmirəm, nə fayda...
Gəl, bu yalanlara az uy da,
Yumaq üçün selim yetməyir.

Bunca yükü daşımaqdansa,
Hər gün yara qaşımaqdansa...
Talıboğlu, yaşamaqdansa,
Uğrunda, bil, ölüm yetməyir.

## Mən şeir yazmıram

*Mən şeir yazmıram*
*baş qatmaq üçün.*
*Abay Kunanbayev*

Mən şeir yazmıram...
anları öldürüb
gün yırtmar üçün,
ötürüb gərdişi boşu- boşuna,
zamanın bətnindən
hey sırtmaq üçün...
Mən şeir yazmıram...
şöhrətin peşində çapam atımı,
ucalıb göylərə
zirvə fəth edəm,
ya da qanıq köpəklər tək,
kiməsə yalmanıb
yersiz mədh edəm...
Mən öz dərdlərimdən öncə,
buncalıq arxada buraxdığım
ayca, güncə
bələnə- bələnə.. sarına- sarına
dərddən geydiyim kürkə
yazıram daha çox
qoynunda doğulduğum,
mayasından yoğrulduğum
Vətən torpağının
ağrı- acısınnan,
dərdi- sərindən...
Yana- yana
hərf- hərf, heca- heca, söz- söz,
misra- misra, bənd- bənd, şeir-şeir
haqqın işığında,
əyri deyil, təkcə düz
ağlayıram,
dağlanan köksümü
bir daha maşa ilə
dağ- dağ dağlayıram...
Və dağlaya- dağlaya da
Vətən oğlunu
qarı düşmənimizdən
qisasa səsləyirəm.
Mən şeir yazmıram...
anbaan... zaman- zaman
könülləri böyük qələbənin,
müqəddəs zəfərin
sevdasına süsləyirəm...

## Şanlı bir gün... şanlı tarix...

Şanlı bir gün... şanlı tarix...
27 sentyabr...
Bu payız səhəri
dolub daşdı,
öz məcrasını aşdı
vüsala susamış,
yatağına sığmayan səbr...
Vətən oğlu- Azərbaycan əsgəri
qarı düşmənimizin-
"dağılmaz" istehkamını,
alaraq ilk kamını
dəlib keçdi.
"Sarsılmaz" mövqelərini
"topdağıtmaz" səflərini
tarmar edə- edə,
altını üstünə çevirə- çevirə
bölüb keçdi...
Otuz ildir ki,
millətimi bir heç sayan
bu dünyaya gülüb keçdi...
Göstərə- göstərə
açılmasına olmayan gərək
bir aksioma tək
isbatını,
başladı yurdumuzun
zəfər dolu büsatını...
Uğur olsun, Vətən oğlu!...

## Bir körpənin gözündə

Çiçək açıb tər- təzə
bir körpənin gözündə,
Ayaq açıb o bu gün,
Günəş gülür üzündə...

Gülüşləri bir udum,
Hər sevinci bal dadım...
Yeriyir addım- addım,
Taqət tapıb dizində.

Yürüyür şirin- şirin,
Sevdası necə dərin...
Talıboğlu, bir görün
Nə aparır özündə....

## Salam olsun

*İş yoldaşım Vüqar Şahmurovun*
*şəxsində döyüşə gedənlərə*

Qarabağda döyüşməyə
Gedənlərə salam olsun.
Orda gərdiş dəyişməyə
Gedənlərə salam olsun.

Almaq üçün qisasını,
Ucaldaraq gur səsini.
Ötə- ötə nəğməsini,
Gedənlərə salam olsun.

Yağının dərsin verməyə,
Onunçün məhbəs hörməyə.
Gül baxçadan gül dərməyə,
Gedənlərə salam olsun.

Düşmənə məzar qazmağa,
Fələk yazanı pozmağa.
Ən şanlı tarix yazmağa...
Gedənlərə salam olsun.

Doğacaq nurlu danıyla,
Axıları al qanıyla...
Talıboğlu, ad- şanıyla,
Gedənlərə salam olsun.

## Cəbrayılım azad oldu

*Cəbrayıllı yazar dostlarım*
*Nazir Çərkəzoğluna, Əjdər Yunus Rzaya*
*və Qorxmaz Abdullaya*

Gözün aydın, qan qardaşım,
Cəbrayılım azad oldu.
Nəm içində kiprik, qaşım,
Cəbrayılım azad oldu.

O yerləri görməsəm də,
Bənövşəsin dərməsəm də.
Qəlbə çələng hörməsəm də...
Cəbrayılım azad oldu.

Qoymasam da üz daşına,
Zirvəsinin sərt qaşına.
Bax, sevincdən göz yaşıma,
Cəbrayılım azad oldu.

Salmasam da köksündə iz,
Çatmasam da qorundan köz...
Durmasam da bir üzbəüz,
Cəbrayılım azad oldu.

Öpməsəm də bulağından,
Keçməsəm də hər dağından.
Kim qurtarar qınağından,
Cəbrayılım azad oldu.

Talıboğlu yurd sevdalı,
Vətən oldu tək amalı...
Bu gün necə şuxdur halı,
Cəbrayılım azad oldu.

## *Netfliks bu dəfə də Bekhemə elçi düşdü - 16 milyonluq müqavilə*



**Netfliks bir-birindən məşhur ulduzlarla müqavilə bağlamağa davam edir. Yüzlərlə film və serialla hər gün yeni bir pilləyə qədəm qoyan Netfliks ABŞ-ın eks-prezidenti Barak Obama və həyat yoldaşı Mişel Obama ilə Harry və Megan Markl cütlüyünün ardınca bu dəfə də Bekhem ailəsinə üz tutdu.**

**Dünyaca məşhur ingilis eks-futbolçu David Bekhemin həyatına fokuslarınan bir proyekt həyata keçirtmək istəyən Netfliks bu çərçivədə addımlarını sürətləndirdi. İngilis mətbuatında yayımlanan iddialara görə, şirkət Bekhem ailəsilə 16 milyon strelinlik müqavilə bağlayıb. 45 yaşlı Bekhemin mərkəzdə olacağı proyektdə məşhur futbolçunun Mançester Yunayted günlərindən beynəlxaq bir ulduza çevrilməsinə, satın aldığı Miami CF klubundan şəxsi həyatına qədər bir çox detal yer alacaq.**

**Bekhemin bundan əlavə musiqiçiliyinin ardınca moda ikonuna çevrilən həyat yoldaşı Viktoria Bekhem və uşaqların da proyektdə böyük rol oynayacağı bildirilir.**

**Qeyd edək ki, kariyerası boyu Mançester Yunayted, Real Madrid, Los Angeles Qalaksi, Milan və PSJ kimi klubların formasını geyinən Bekhem 2013-cü ildə aktiv futbol həyatını bitirib. Bekhemin 450 milyon dollar sərvəti olduğu deyilir.**

**Eminquey**

Aqil Abbas **Milli Məclisin sədri Sahibə Qafarovaya** qardaşı
**Sahib Babayevin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Aqil Abbas **Azər Hətəmova** anası
**Ofeliya xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Aqil Abbas **Aydın Uluxanlıya** anası
**Sara xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əlisəmid Kür, Vaqif İsaqoğlu və Əbülfət Mədətoğu **Aydın Uluxanlıya** anası
**Sara xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«Ədalət» qəzetinin kollektivi iş yoldaşları **Rüstəm Hacıyevə** əzizi
**Ofeliya xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Müddətdən artıq həqiqi hərbi qulluqçu Abbasova Gülxanım Fərhad qızına verilmiş Ad 0022342 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

***

Samux rayon Bağmanlar kənd sakini İmanova Sədaqət Səməd qızının adına verilmiş JN-0051 kod: 50702038 saylı torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Samux rayon Bağmanlar kənd sakini Ələsgərova Nuriyə Nurəddin qızının adına verilmiş JN-0054 kod: 50702038 saylı torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 25
Çapa imzalanmışdır: 30.10.2020